www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 iyul 2015-ci il Cümə № 159 (6187) Qiymləti 40 qəpik

**Xəbər**

**Müdafiə Nazirliyi: İrəvanı istənilən an darmadağın edə bilərik**

yazısı səh.6-da

**Gündəm**

**Obamanın elçisi Bakıda**



ABŞ dövlət katibinin baş köməkçisi Riçard Hoqland Azərbaycanda insan haqları ilə bağlı suala cavabdan yayındı

yazısı səh.6-da

**Nüvə anlaşması İranı hara aparacaq - Şərqə, yoxsa?..**

yazısı səh.8-də

**İcra başçısı sahibkara 66 min manat uduzdu**

yazısı səh.5-də

**Siyasi radikalizm niyə uğur qazanmadı?**

yazısı səh.4-də

**Ağdamın işğalından 22 il ötdü**

yazısı səh.2-də

*Zahid Oruc:*

**"Qərb Azərbaycanın bir sıra şərlərini qəbul edəcək"**

yazısı səh.9-da

**Ekspert Beynəlxalq Bankın problemlərinin həlli yollarını göstərdi**

yazısı səh.13-də

**Şuşaya qaçan rus milyarder İnterpola verilir**

yazısı səh.9-da

**"Yediyin zəhər olsun" deyənlərə...**

yazısı səh.15-də

**"Yəhudilər İsraildən Azərbaycana köçür" iddiası**

yazısı səh.11-də

**AZAL-ın qiymət oyunu**

yazısı səh.13-də

**Tofiq Yaqublunun səhhətində problem yaranıb**

yazısı səh.3-də

**Poroşenko Elçibəyin kadrına vəzifə verdi**

yazısı səh.11-də

# İcra başçıları üçün avqust sınağı

# KADR DƏYİŞİKLİYİNİN YENİ DÜSTURU: "ƏVVƏL İCRA BAŞÇILARI GEDİR..."

Prezident İlham Əliyevin son aylar komandasındakı problemlərdən açıq danışmasının sirri çözülür; "biz hakimiyyət üçün çox vacibik" düşünən xeyli arxayınlaşmış məmur təbəqəsini islah etmək, belə görünür, indi daha çətindir; kadr islahatları şəhər və rayonların icra başçılarının dəyişdirilməsi ilə başlayacaq və sonra daha iri fiqurları əhatə edəcək



yazısı səh.5-də

# Tehran anlaşması Azərbaycanla İsraili yaxınlaşdırır - ilginc gəlişmə

İran üzərindən sanksiyaların götürülməsi Bakının Qərb üçün önəmini azaltsa da, yəhudi dövləti üçün əksinə, artırıb; hakimiyyətin ABŞ və Avropaya qarşı ritorikasında yumşalmanın daha bir mühüm səbəbi; Qarabağ məsələsi üçün təzə şərt yetişə bilər...

yazısı səh.11-də



**Rauf Arifoğlu Steynar Gilə açıq məktub yazdı**

yazısı səh.7-də



*İsgəndər Həmidov:*

**"Belə çıxır ki, o həmişə döyülməli, söyülməli, tutulmalı idi?"**

yazısı səh.10-da



**Avropa Məhkəməsi Elmar Hüseynovun qətli üzrə araşdırmalara başladı**

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015



# Obama Keniyaya səfəri zamanı nənəsinə baş çəkəcək

**ABŞ prezidenti Barak Obama Keniyaya sabah başlayacaq səfəri zamanı nənəsinə baş çəkməyə nəhayət razılaşıb. Virtualaz.org saytı xəbər verir ki, bu haqda ABŞ prezidentinin milli təhlükəsizlik müşaviri Syuzan Rays jurnalistlərə bildirib. "Ancaq zaman və logistika ilə bağlı məhdudiyyət var. Lakin mən əminəm ki, prezident də bu səfəri və hansısa müddət ərzində fərdi qaydada öz qohumları ilə görüşməyi səbrsizliklə gözləyir"-Syuzan Rays bildirib.**

Obamanın atası keniyalı qaradərilidir, hazırda bu Afrika ölkəsinin kəndində onun nənəsi və atasının nəslindən olan çoxsaylı qohumları yaşayır. Onlar əsasən keçi və inək saxlamaqla, digər kənd təsərrüfatı işləri ilə məşğuldur. Bundan əvvəl xəbər verilmişdi ki, Obama Keniyaya səfəri zamanı atasının doğma kəndi olan Koqeloda nənəsi və digər ailə üzvləri ilə görüşmək istəmir.

Obama Qlobal sahibkarlıq sammitində iştirak etmək üçün Keniyaya səfər edir. Bu, ABŞ prezidentinin atasının vətəninə ilk səfəridir. Həmçinin tarixdə ilk dəfədir ki, ABŞ prezidenti bu Afrika ölkəsinə səfər edir. Obama Keniyadan sonra qonşu Efiopiyaya səfər edəcək.

# Avropa Birliyinin rəsmisi İrana gedir

**Avropa Birliyinin xarici siyasət məsələləri üzrə rəsmisi Federika Moqerini gələn həftə İran və Səudiyyə Ərəbistanına səfər edəcək. Məqsəd İranla 6 dünya ölkəsi arasında əldə edilmiş yekun nüvə sazişini müzakirə etməkdir.**

Federika Moqerininin ofisindən verilən məlumata görə, o, iyulun 27-də Səudiyyə Ərəbistanına, 28-də isə İrana gedəcək.

Avropa rəsmisi Səudiyyə rəsmiləri ilə regional problemləri, Tehranda isə İranla nüvə sazişinin yerinə yetirilməsini müzakirə edəcək.

İyulun 14-də əldə edilmiş bu razılaşmada İranın nüvə proqramını dondurması və əvəzində ona qarşı sanksiyaların aradan qaldırılması nəzərdə tutulur.

İranla bu saziş bir sıra Yaxın Şərq ölkələrində narahatlıqla qarşılanır.

Səudiyyə Ərəbistanı kimi ölkələr hesab edir ki, sanksiyaların qaldırılması İranın regionda nüfuzunu artıra və sabitsizliyə səbəb ola bilər.

Qərb və bir sıra ərəb ölkələri İranı Suriya, Yəmən və İraqdakı proseslərə müdaxilədə günahlandırır.

Tehran ittihamı rədd edir.

# Türkiyə sərhədlərinə beton divar çəkir

**Türkiyə hakimiyyəti Suriya və İraqa vuruşmağa gedən xarici yaraqlıların qarşısını almaq üçün sərhədlərini möhkəmləndirir. AzadlıqRadiosunun müxbiri 900 kilometrlik Suriya sərhədinin bir sıra yerlərində beton sədlər çəkilməsinə başlandığını xəbər verir.**

Türkiyə hökuməti həmin ərazilərə hərbi hissələr və texnika yeridir. Bu ərazilərdə əlavə hərbi məntəqələr, kameralar quraşdırılması və ikiqat tikanlı məftillər çəkilməsi də nəzərdə tutulur.

Baş nazirin müavini Bulent Arınc Ankarada keçirdiyi mətbuat konfransında deyib ki, məqsəd Türkiyə və Suriya xalqlarını bir-birindən ayırmaq yox, terrorçuların hərəkətini dayandırmaqdır.

Amma müxalifət bu tədbirlərin yetərli olmadığını deyir və hakimiyyəti sərhədlərin təhlükəsizliyini təmin edə bilməməkdə günahlandırır.

Hazırda Türkiyənin Suriya ilə həmsərhəd olan bölgələrində 2 milyondan çox Suriya qaçqını var.

Bu bölgələrdə vaxtaşırı terror aktları törədilir, qaçaqmalçılıq baş alıb gedir və İŞİD qrupuna qoşulmaq üçün Suriyaya yaraqlılar keçirilir.

Bugünlərdə Suriyanın Suruc şəhərində törədilən terror aktında 32 nəfər ölüb, 100-ə yaxın adam isə yaralanıb. Bu şəhər Suriya sərhədinin 10 kilometrliyində yerləşir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Bayram Səfərov Qarabağ danışıqlarını izləmir?

**Artıq bir neçə gündür ATƏT-in Minsk Qrupu həmsədrlərinin regiona səfəri davam edir.Səfər çərçivəsində həmsədrlər bu gün Azərbaycana gəliblər.**

Bir qədər əvvəl isə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev həmsədrləri - Ceyms Uorliki (ABŞ), İqor Popovu (Rusiya), Pyer Andryönü (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Artıq xəbər verdiyimiz kimi, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar danışıqların hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qarabağ məsələsinin gündərdir aktual müzakirə mövzusuna çevrildiyi məqamda Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının sədri Bayram Səfərov həmsədrlərin Bakıya gəlişindən xəbərsizdir.

Bu barədə azvision.az-a icma rəhbəri özü deyib.

B.Səfərov bildirib ki, həmsədrlərin regiona, o cümlədən Azərbaycana gəlməsindən xəbəri yoxdur: "Həmsədrlərlə mənim heç bir əlaqəm yoxdur. Bilmirəm. Onların səfərlərindən xəbərsizəm. Bu barədə sizdən eşidirəm. Nə vaxt gəliblər? Belə də ki, gəlsinlər də..."

Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması sədrinin Minsk Qurpu həmsədrlərinin bölgəyə, o cümlədən ölkəmizə səfərindən xəbərsiz olması sual doğurur: Bayram Səfərov Qarabağ danışıqlarını izləmir?



# Prezident həmsədrləri qəbul edib

**Prezident İlham Əliyev iyulun 23-də ATƏT-in Minsk Qrupunun həmsədrləri Ceyms Uorliki (ABŞ), İqor Popovu (Rusiya), Pyer Andryönü (Fransa) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anjey Kaspşiki qəbul edib. APA-nın məlumatına görə, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar danışıqların hazırkı vəziyyətinə və perspektivlərinə dair məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.**



Oqtay Şirəliyev

# Nazir 500 nəfəri öldürən virus haqda əmr verdi

**Səhiyyə naziri Oqtay Şirəliyev koronovirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsi məqsədilə əmr imzalayıb.**

Bu barədə virtualaz.og saytına nazirlikdən məlumat veriblər.

Xəbərdə deyilir ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, Yaxın Şərq ölkələrində respirator sindromlu koronovirus (MERS-CoV) aşkar edilib və onun törətdiyi xəstəliyin qeydiyyata alınmasına başlanıb. 2015-ci ilin mayında xəstək Cənubi Koreyada əhəmiyyətli dərəcədə alovlanıb və hazırda davam etməkdədir.

Ümumən bütün ölkələr üzrə 1,3 mindən artıq insan bu virusa yoluxub və onlardan 500-ə yaxını ölüb.

Buna görə də nazir Azərbaycanda koronovirus xəstəliyinə qarşı profilaktik tədbirlərin gücləndirilməsini əmr edib. Ölkənin şəhər və rayonlarının tibb idarə və müəssisələrinin rəhbərlərinə koronovirus xəstəliyi barədə tibb işçilərinin məlumatlandırılması, kəskin respirator xəstəlik halları barədə məlumatın dərhal yerli gigiyena və epidemiologiya mərkəzlərinə verilməsi, şübhəli şəxslərdən götürülmüş nümunələrin Respublika Taun Əleyhinə Stansiyasına çatdırılması, xəstəliyin simptomatik müalicəsi üçün dərman preparatlarının ehtiyatının yaradılması, tibb müəssisələrində dezinfeksiya tədbirlərinin həyata keçirilməsinin gücləndirilməsi tapşırılıb.

# DÇ-2018-in püşkü atılacaq: Azərbaycan 5-ci səbətdədir




**İyulun 25-də DÇ-2018-in püşkü atılacaq. AFFA-nın saytında verilən məlumata görə, 2018-ci ildə Rusiyada keçiriləcək dünya çempionatının püşkatma mərasimi iyulun 25-də Sankt-Peterburq şəhərindəki Konstantinovski sarayında baş tutacaq.**

Püşkatma səbətlərinin tərkibi belədir:

*1-ci səbət*

Almaniya, Belçika, Hollandiya, Portuqaliya, Rumıniya, İngiltərə, Uels, İspaniya, Xorvatiya

*2-ci səbət*

Slovakiya, Avstriya, İtaliya, İsveçrə, Çexiya, Fransa, İslandiya, Danimarka, Bosniya və Herseqovina

*3-cü səbət*

Ukrayna, Şotlandiya, Polşa, Macarıstan, İsveç, Albaniya, Şimali İrlandiya, Serbiya, Yunanıstan

*4-cü səbət*

Türkiyə, Sloveniya, İsrail, İrlandiya, Norveç, Bolqarıstan, Farer adaları, Monteneqro, Estoniya

*5-ci səbət*

Kipr, Latviya, Ermənistan, Finlandiya, Belarus, Makedoniya, Azərbaycan, Litva, Moldova

*6-cı səbət*

Qazaxıstan, Lüksemburq, Lixtenşteyn, Gürcüstan, Malta, San-Marino, Andorra

# Daha bir banka yeni rəhbər təyin edildi

**Fərhad Adıgözəlov "Azər-Türk Bank" ASC-nin İdarə Heyəti sədrinin səlahiyyətlərinin icraçısı təyin edilib. Bankdan "Trend"ə verilən məlumata görə, F.Adıgözəlov daha əvvəl bankın İdarə Heyəti sədrinin müavini vəzifəsində çalışıb.**

Bankdan bildiriblər ki, yeni rəhbər seçilənədək F.Adıgözəlov İdarə Heyəti sədrinin səlahiyyətlərini müvəqqəti icra edəcək.

Bankın İdarə Heyətinin yeni sədri səhmdarların yığıncağında seçiləcək. Səhmdarların yığıncağı 2015-ci il iyulun 31-də keçiriləcək.

Qeyd edək ki, Elmar Məmmədov "Azər-Türk Bank"ın İdarə Heyətinin sədri vəzifəsini tərk etdikdən sonra bankın rəhbəri vəzifəsi boş qalmışdı. E.Məmmədov ötən gün "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sədri təyin edilib.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

# Ağdamın işğalından 22 il ötdü

**Ağdam şəhəri və ətraf yaşayış məntəqələrinin Ermənistan ordusu tərəfindən işğal olunmasının 22 illiyi münasibətilə Ağdam rayonunda tədbir keçirilib.**

APA-nın Qarabağ bürosunun xəbərinə görə, mərasimdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Raqub Məmmədov, Milli Məclisin deputatı Elman Məmmədov, rayondan olan keçmiş döyüşçülər və ziyalılar iştirak ediblər.

Tədbirdə çıxış edənlər 1990-cı illərin əvvəllərində baş verən hadisələrdən, Ermənistanın Azərbaycana qarşı apardığı istilaçılıq siyasətindən bəhs ediblər. Bildirilib ki, 1988-ci ilin fevralından başlanan hərbi-siyasi proseslərin, ermənilərin separatçı hərəkətlərinin və müharibənin əsas çətinlikləri Ağdam rayonunun, onun əhalisinin üzərinə düşüb. Qarabağ müharibəsinin bütün ağrılarını çiyinlərində daşıyan Ağdam düşmənə qarşı 5 illik savaşda minlərlə şəhid verib, torpaqların müdafiəsi uğrunda fədakarlıq göstərmiş ağdamlılardan 16 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Sonra tarixi Soltanpud təpəsində şəhidlərin xatirəsinə qurulan abidə kompleksində Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və Konstitusiya quruluşu uğrunda həlak olan soydaşlarımızın ruhlarına dualar oxunub.

Tədbir Ağdam Dövlət Dram Teatrının hazırladığı kompozisiya ilə davam edib.

# Şadlıq evinin qarşısında kütləvi dava

**Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu paytaxtda baş verən kütləvi dava ilə bağlı rəsmi məlumat yayıb.**

"Report"un xəbərinə görə, rəsmi açıqlamada bildirilib ki, iyulun 23-də saat 15 radələrində paytaxtın Nizami rayonu ərazisində fəaliyyət göstərən "Meridian" şadlıq sarayının yaxınlığında Quliyev Sənan Əli oğlu ailə münaqişəsi zəminində aralarında yaranmış mübahisə zamanı üstündə gəzdirdiyi bıçaqla arvadı Hüseynova Vüsalə Vüqar qızını qəsdən öldürmək məqsədilə bədəninin müxtəlif nahiyələrinə çoxsaylı xəsarətlər yetirib, sonuncu aldığı xəsarətlərlə bağlı xəstəxanaya yerləşdirilib.

Nizami Rayon Polis İdarəsi və rayon prokurorluğunun əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, maddi sübutlar götürülüb, müvafiq ekspertizalar təyin edilib və digər təxirəsalınmaz zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Fakta görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam ödürməyə cəhd) maddəsi ilə cinayət işi başlanıb, həmin cinayətin törədilməsində şübhəli bilinən S.Quliyev tutularaq istintaqa cəlb edilib.

Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

## Tofiq Yaqublunun səhhətində problem yaranıb

**13 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən vicdan məhbusu Tofiq Yaqublunun səhhətində ciddi problem yaranıb. Bu barədə onun qızı Nigar Yaqublu facebook səhifəsində yazıb: “Atamla danışdım. İki gün imiş ki, böyrəyində daş varmış. Dəhşətli ağrıları olub. Həbsxananın yerli tibb məntəqəsinin və mərkəzi hospitalın həkimləri ona ciddi tibbi yardım və qayğı göstəriblər. Artıq daş böyrəkdən düşdüyü üçün ağrıları səngiyib. Həkimlərə təşəkkür edirəm”.**



YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015

# İnternet media da dövlətdən yardım ala bilər



**Əflatun Amaşov:** “İnternet medianın əhəmiyyəti Avropa Oyunlarında özünü göstərdi”



**Aynur Camal:** “Dövlət başçısı bu məsələni gündəmə gətirməklə...”



**Qabil Abbasoğlu:** “Yaxın vaxtlarda bütövlükdə internet mediası ilə bağlı siyasətin daha effektiv mərhələsi başlayacaq”

**Prezident İlham Əliyev mətbuatımızın 140 illiyi ilə bağlı Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə internet televiziyalarına dair bir sıra mesajlar verib. Ölkə başçısı vurğulayıb ki, Azərbaycan həqiqətlərini, problemlərini dünyaya çatdırmaq üçün internet saytlarının sayı artırılmalıdır.**

Ölkə başçısının azad mətbuat barədə dedikləri bəzi məsələləri aktuallaşdırıb. İlk növbədə, yazılı media kimi, internet mediasına da dövlət yardımının edilməsi önə çıxıb. Bu məsələ ilə bağlı APA-ya açıqlama verən Mətbuat Şurasının sədri Əflatun Amaşov bildirib ki, dövlət yazılı mətbuata yardım etdiyi kimi, internet mediaya da yardım edə bilər.

**Şura sədri prezidentin Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşündə də bu barədə danışdığını qeyd edib:** “Çünki internet media bizim bu günümüz üçün çox önəmlidir. I Avropa Oyunlarında bu amil bir daha özünü göstərdi. Sirr deyil ki, onlayn jurnalistika ölkədə ictimai fikrə təsir göstərən, ictimai fikri formalaşdıran ən mühüm mətbuat vasitələrindən biridir. Məhz internet üzərindən yayımlanan media vasitəsilə Azərbaycan özünün imicini xarici ölkələrdə daha asan, daha uğurlu formalaşdıra bilər”.

**“Gündəlik Teleqraf” qəzetinin baş redaktoru Aynur Camal “Yeni Müsavat”a açıqlamasında internet medianın bu dəstəyə böyük ehtiyac duyduğunu qeyd etdi:** “Sevindirici haldır ki, Azərbaycan dövləti medianın inkişafına dəstək verir. Dövlət Dəstəyi Şurasının vasitəsilə yazılı mediaya birbaşa yardımlar, layihələri icra etmək üçün qrantlar ayrılır. Media təmsilçiləri mənzillə təmin olunurlar. Bu proseslər davamlıdır. Təbii ki, biz bunların hamısına çox müsbət dəyərlər verir, alqışlayırıq. Bu dünyada analoqu olmayan məsələdir. Bütün bunlara görə, cənab prezidentə təşəkkür edirik. Doğrudan da çox müsbət bir məsələdir. Onlayn mediaya, internet televiziyalarına xüsusi diqqət göstərilməsi də biz tərəfdən təqdir edilir. Düşünürəm ki, artıq klassik media çox sürətli şəkildə yerini internet mediaya verməkdədir. Bu qarşısıalınmaz və qaçılmaz bir prosesdir. Bu prosesdə onlayn medianın daha sürətli inkişaf etməsi üçün dövlət də bizə dəstək olacaqsa, sevinəcəyik. Yeri gəlmişkən, qeyd edim ki, şirkətimizin bununla bağlı media projesi var. Yaxın vaxtlarda həmin projeni tamaşaçıların ixtiyarına verəcəyik. Düşünürəm ki, bu sahəyə diqqətin artırılması, özü də ölkənin birinci şəxsi tərəfindən önəm verilməsi bu sahənin səmərəli olduğunun sübutudur. Artıq insanlar öz mobil telefonları vasitəsilə informasiya alırlar. Klassik media öz əhəmiyyətini itirməkdədir. Dünən baş vermiş hadisəni bu gün qəzet, yaxud jurnal vasitəsilə oxumaq istəmirlər. Artıq xəbəri anındaca almaq imkanları var. Bu imkanların daha da genişləndirilməsi, intensivləşdirilməsi üçün dövlət bizə dəstək olacaqsa, biz jurnalistlər bunu alqışlayacağıq”.

**A.Camal prezidentin açıqlamalarında duyulan mesajlara da toxundu:** “Əslində bu cür mesajlar dəfələrlə olub. Düşünürəm ki, bu, çox önəmli bir məsələdir. Əgər yazılı mediaya yardım olunursa, dəstək verilirsə, nəyə görə onlayn mediaya da bu dəstək olmasın? Hesab edirəm ki, dövlət başçısı bu məsələni gündəmə gətirməklə, bizə həm də mesaj verdi. Tezliklə dəstəyi hiss edəcəyimizə əminik”.

**Lent.az saytının baş redaktoru Qabil Abbasoğlu yaxın müddətdə internet televiziyaları ilə bağlı yeni mərhələnin başlayacağına ümid edir:** “İnternet mediası Azərbaycanda özünün inkişaf dövrünü yaşayır. Bu vaxta qədər sayt formatı daha populyar idisə, indi artıq bu sıraya internet televiziyaları da qoşulub və bu proses uğurla gedir. KİV-lər çatdırılma formasından asılı olmayaraq, cəmiyyət həyatında mühüm bir institutdur və hakimiyyət də, dövlət yetkililəri də bunu bilirlər. Prezident İlham Əliyevin özü dəfələrlə çıxışlarında Azərbaycanda internet medianın əhəmiyyətindən danışıb, bu sahədə görülən işlərə diqqət yetirdiyini göstərib. Ümumiyyətlə, dövlət başçısının yeni texnologiyalara münasibəti bizə deməyə əsas verir ki, yaxın vaxtlarda bütövlükdə internet mediası ilə bağlı siyasətin daha effektiv mərhələsi başlayacaq. Bu mərhələdə internet televiziyalarına dövlət dəstəyinin olmasını da, zənnimcə, gözləməyə dəyər”.

❑ **Cavanşir ABBASLI**

## Avropa Məhkəməsi Elmar Hüseynovun qətli üzrə araşdırmalara başladı



Elmar Hüseynov

**Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanda 2005-ci il martın 2-də qətlə yetirilmiş jurnalist, “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovla bağlı araşdırmalara başlayıb. Araşdırma mərhum jurnalistin həyat yoldaşı Ruşaniyyə Hüseynovanın şikayəti əsasında həyata keçirilir. Bu barədə Avropa Məhkəməsinin yaydığı məlumatda bildirilir ki, Ruşaniyyə Hüseynovanın ərizəsi 2010-cu il fevralın 17-də təqdim olunub.**

Araşdırma çərçivəsində artıq Azərbaycan hökumətinə sorğu göndərilib, bu cinayət işi üzrə bütün materialların Avropa Məhkəməsinə təqdim olunması tələb edilib.

# Testdən keçməyən dostlar



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Mətbuatın 140 illik ildönümü bayram ovqatından daha çox, marığa yatmış kəmfürsətçilərin yersiz hay-küyü və dedi-qodusu həsabına gərgin notlarla yadda qaldı. Bayram bitib, amma qovğa hələ də davam edir, çünki daşımız ağırdı.**

Gözlənildiyi kimi, hədəfə yenə “Yeni Müsavat” gətirildi. Sanki bu ölkəyə, onun milli-ictimai maraqlarına, müstəqil mətbuatın inkişafına heç bir töhfəsi olmayıbmış kimi qəzetimizə şablon təbrikləri belə bəziləri çox gördülər, əvəzində nalə-nifrinin dozasını elə bir həddə qaldırdılar ki...

Uman yerdən küsərlər. Əfsus ki, dostların heç də hamısı yubiley tostundan, bu yubiley ətrafında baş verən məlum olaylardan dolayı sınaqdan çıxa bilmədilər, insaf ölçüsünü itirdilər, yaşananlara strateji olaraq yanaşa bilmədilər - emosiya imkan vermədi.

Hətta siyasət uzmanı sayılanlardan hissə qapılıb da uzağı görməyən, yaraşdırmadığımız açıqlamalar eşitdik. Halbuki, gercəkdə bir şey dəyişməmiş və dəyişməsi gözlənilmir də. “Yeni Müsavat” 22-23 iyula kimi hansı yolda idisə, ondan sonra da eyni yolu davam etdirir.

Bunu ən ümumi şəkildə dostumuz Hacı İlqar belə təqdim edib. Sitat: “Rauf Arifoğluna qarşı "xəyanətkar damğası vurma" kampaniyasını çox mənfi dəyərləndirirəm. Rauf Arifoğlunun siyasi fəaliyyətdən uzaqlaşma və tənqidçi jurnalistika yönündə təmərküzləşmə seçim hüququnu tanıyıram. Ona “Əməkdar jurnalist” adı verilməsinə gəldikdə, ölkədə müasir jurnalistikanın formalaşmasına verdiyi böyük töhfəyə görə Rauf bəy bu adı faktiki olaraq illərdir daşıyır. Və bunun rəsmiləşdirilməsinin qəbul etməsini ölkə mediasının mövcud böhranlı durumdan xilası üçün etdiyi manevr kimi qiymətləndirirəm. İnanıram ki, Rauf Arifoğlu əqidəsinə və prinsiplərinə sadiqdir və strateji olaraq, heç bir geriləməyə yol verməyəcək".

***

Biz də zatən, onu deyirik. Təkcə demirik, həm də işimizlə göstəririk. O zaman yersiz haray-həşir nə üçündür? Qəzetin kursunda strateji olaraq nə dəyişib axı son günlərdə? Heç nə. Dəyişiklik varsa, o da malisəf, “Yeni Müsavat”ın dostlarının səfindədir.

Özləri bilər. Hər halda heç bir ciddi siyasətçi, hakimiyyətə iddialı şəxs ölkənin ən reytinqli nəşri və portalına, onun kollektivinə, ümumən mediaya düşmən kəsilməz. Bəlkə də mətbuatla dost olmadan hakimiyyətə gəlmək mümkündür, ancaq iqtidarda uzun müddət qalmaq - YOX!

***

İşə bax, gözləmədiyimiz yerdən yubileylə təbrikləri aldıq, ancaq ayaqlarına balaca bir daş toxunan kimi məlhəmi birinci bizdən istəyən və həmişə də təmənnasız alan “dostlardan” *(artıq onları dırnağa salmaq olar)* səs çıxmadı. Kiçik, xoş bir sözü bizə çox gördülər. Yəni o boyda “məlhəmlər”, sizə işlətdiyimiz “rivanol”, “marqansovka”lar bir “salam”a dəymədi?

Hələ harasıdır, təbrik əvəzinə qınaq, ittiham eşitdik. Cəbhə qaraguruhuna qoşulub qırğıların çörəyinin üstünə yağ sürtdülər “dostlar”. İsti aşımıza yubiley günlərində soyuq su qatdılar. Ad çəkməyəcəyik, işin içində olanların hamısı kimlərdən söhbət getdiyini bilir. Arifə işarə də bəsdir.

Bu xüsusda illərdir xətir-hörmətini saxladığımız siyasət adamlarında “əli kərimləşmə” getməsini heç istəməzdik. Zira, bu günün sabahı var...

***

Ancaq biz kinli deyilik. Bağışlayırıq. Fəqət, Nelson Mandellanın sözü ilə desək, bağışlasaq da, yaddan da çıxarmayacağıq. Belə şeylər yaddan çıxmır - bizim də ayağımıza daş dəyəndə “dostlar”ın bundan həzz alması unudulmadığı kimi.

Sağlıq olsun! Çalışın ayağınıza bir də daş dəyməsin. Məlhəm tapılmaya bilər...



# Pislik edənlərə yaxşılıqla əzab verən insan

## (Rauf Arifoğlunun doğum gününə)

**Şərin cocuqları başımızı o qədər qatır, bəzən öz günümüz, ad günümüz umurumuzda belə olmur. Azərbaycanı, onun söz sənətini, qəzetçiliyini pis imzalardan, adlardan, sözlərdən, səslərdən qorumaq... Bütövlükdə sözü qorumaq... Ən böyük missiyalarından biri də budur. Mətbu sözün böyük gözətçisi...**

Tarixin yaddaşında böyük hesabla haqlı olaraq qalanlar, qalib olanlar müasirləri tərəfindən hücumlara məruz qalır adətən. Peyğəmbərlərdən tutmuş sərkərdələrə, şairlərdən siyasətçilərə kimi belə olub. Görünür, bu da tarixin öz raconudur. Bəlkə də tarix səni daha parlaq şəkildə haqlı çıxaracağı üçün bu gün belə ağır sınaqlara çəkir.

Söz yazıb - ruzi qazanmaq... Hər bəndəyə nəsib olmayan xoşbəxt həyat, gözəl tale. Sən hər sınaqdan üzü ağ çıxdıqca daha bir sınaq başlayır. Və bu sınaqlar təkcə sənin üçün deyil. Qarşındakılar - bədxahların üçündür həm də. Tarix onlara da yer ayırıb öz səhifələrində - haqsızlar bölümünə gömüləcəklər, buna şübhə etmirəm.

Azərbaycanın istiqlal pasportu olan Müsavat adına bir təsisat qurub onu 26 il yaşatmaq, hər gün onun uğurunu bir qədər də artırmaq, böyütmək gündəlik işə çevrilib sənin üçün. Yaşının yarısından çoxu Müsavat adıyla bağlıdı. Sənə olan qəzəbin bir səbəbi də 1993-dən üzü bəri sənlə eyni adla yarışanların *(sənin yarışdıqlarının yox, məhz sənlə yarışanların!!!)* yarı yolda yorulub tənginəfəs olmaları, sıradan çıxmalarıdı. Üzgündülər, bu üzdən qəzəblidirlər - qərəzlidirlər. Qərəz onları şərin cocuqlarının yanında səf tutmağa istiqamətləndirir.



Müsavat adına qurduğun qəzeti dünyaca məşhur etmisən. Müsavat adını dünya çapına çıxara bilmisən. Hər gün dünyanın ən müxtəlif ölkələrindəki oxucuların sənin qurduğun Müsavatdan özlərinə lazım olan məlumatları oxuyurlar. Elə bir Azərbaycandilli oxucu yoxdur ki, xəbər oxumaq üçün ilk musavat. com-u açmasın. Bunun nə demək olduğunu təkcə səni sevənlər anlamır ki. Sevməyənlər də bu faktın fərqindədirlər. Ona görə də isteriya içində qıvrılırlar.

Bəlkə də doğum günündə bunları yazmalı deyildim. Amma tarix üçün bu da lazımdır, düşünürəm. Təkcə gələcək üçün yox, həm də bu gün üçün lazmdır. Yazaq, yayaq, duyuraq. Zatən işimiz budur. İctimai mühiti zəhərləyənlərə meydanı buraxacaq deyilik. Bizim işimiz həm də ziyanvericilərə qarşı amansız mübarizə aparmaqdır, siyasətin həşəratlarına aman verməməkdir.

Builki doğum gününü fövqəladə vəziyyətdə və ziddiyyətlər içində qeyd edirsən. Bir yandan dövlət tərəfindən sənə verilmiş mükafat və bunun nəticəsində şəxsinə ünvanlanan təbriklər, digər tərəfdən, söyüş, təhqir, qarğış. Birincinin miqyası çox böyükdür - müəllifi xalqdır. İkinci isə siyasi azlığın "töhfəsidir". Haqsız azlıqlar həmişə ikrah doğurur...

Sən sənə yapılan pisliyi bağışlamağı bacarırsan. Necə ki, bu günə kimi belə olub. Ən qatı əleyhdarını belə bağışlamısan. Sənə pislik edənlərə sən yaxşılıq etməklə əzab vermisən. Bəzən buna görə səni ən yaxın dostların belə qınayıb. Fəqət heç bir qınaq, heç bir irad sənin bu ali keyfiyyətini dəyişdirməyib.

**Dəyişmə. Həmişə belə qal. Bu ölkə sənin kimi böyük düşünə bilən, böyük ürək sahibi olan insanlara təşnədir. Doğum günün qutlu olsun, USTAD. Sənin tələbən, dostun, arxadaşın və qardaşın olmaq nə gözəldir, bir bilsən. Yaxşı ki, varsan.**

❑ **Azər AYXAN**

# Siyasi radikalizm niyə uğur qazanmadı?

## Demokratik düşərgə tənəzzül dövrünü yaşayır; xalq əski liderləri qəbul etmir, yeni simaya ehtiyac yaranıb...

**Son illər demokratik düşərgə tənəzzül dövrünü yaşayır. Hazırda müxalif qurumların fəaliyyəti olduqca zəif görünür. Xalqın inamını gündən-günə itirən siyasi partiyalar da mövcud vəziyyətlə barışmış durumdadırlar.**

Təsadüfi deyil ki, qarşıdan ölkənin siyasi həyatı üçün mühüm olan parlament seçkiləri gəlir. Üç aydan bir qədər artıq vaxt qalmasına baxmayaraq, hələ də müxalif qurumlar namizədlərini müəyyən etməyiblər. Bu isə mövcud vəziyyətin nə qədər acınacaqlı olduğunun sübutudur.

Heç şübhəsiz ki, müxalifətin bu qədər zəifləməsinə səbəb olan amillərdən biri də son 22 ildə aparılan siyasət, seçkilərdəki məğlubiyyətlərdir. Artıq xalqın köhnə simalara inanmadığı və yeni simaya ehtiyac duyduğu müşahidə olunmaqdadır.

**Politoloq Natiq Miri hesab edir ki, müxalifətin böhran yaşamasının kökündə inamsızlıq dayanır:** "Bu, birbaşa inama bağlı məsələdir. Bu gün xalqın maraqlarını ifadə edən şüarlarla mitinqə adamlar gəlmirsə, bu, xalqın mitinqə çağırış edən siyasi güclərə olan inamsızlığının nəticəsidir. Son illərdə müxalifət daxilində siyasi didişmələr özünü göstərdi. Hakimiyyətdən daha çox müxalifət daxilində birinci olmaq uğrunda mübarizə getdi. Bu savaşlar tədricən yorucu oldu. Xalq heç bir anlam daşımayan bu mənasız mübarizədən yoruldu və hədəf onları qane etmədiyinə görə proseslərdən çəkildilər. Siyasi güclərin daxilində də bu proses getdi. Funksionerlərdən düşərgə dəyişənlər, siyasətdən gedənlər oldu. Düşünürəm ki, hədəf doğru seçilmədi. Siyasi radikalizmlə, nümayiş və mitinqlərlə hakimiyyətlə mübarizə aparmaq çox çətindir. Çünki bunların qarşısını alacaq avtoritar rejim



mövcuddur. Müxalifət radikal addımlar atdıqca, iqtidarın məhdudiyyətləri artdı. Maliyyə və digər səbəbləri məlumdur. İş o yerə çatdı ki, liderlər rayonlara belə buraxılmadılar. Bununla hakimiyyət siyasi qurumların yerlərdəki təşkilatları ilə olan bağları qırdı. İtmiş inamı geri qaytarmaq üçün ciddi siyasi fəaliyyətə ehtiyac var. Amma hazırda siyasi liderlər bu şanslarını itiriblər. Real hakimiyyəti qəbul etməmək siyasəti ilə özlərini proseslərdən kənarda qoyublar".

**Politoloq iqtidarla bəzi məsələlərdə razılığa getməyin vacib olduğunu bildirdi:** "Hakimiyyətlə strateji məsələlərdə ortaq işbirliyinə gedilməli idi. Siyasi mübarizə küçələrdən parlamentə daşınmalıdır. Bununla hakimiyyətin içinə sızmaq olardı. Çünki bu dövlət təkcə hakimiyyətin deyil. İqtidarı qəbul etməməklə partiyalar nəyə nail oldular? Hazırda bu yanlış siyasət davam etdirilir. Düşünürəm ki, iqtidarla müəyyən razılaşmaya gedilməli və siyasi islahatların keçirilməsinə zəmin yaradılmalıdır. Bu zəmin artıq yoxdur. Yalnız xarici faktorlarla nail olmaq mümkündür. Hakimiyyət müxalifəti qəbul etmir, çünki zəifdir. Müxalifət isə hakimiyyəti qəbul etmir, hətta iqtidara salam verənləri düşmən kimi qəbul edirlər".

**Natiq Miri siyasi partiyaların maliyyələşdirilməməsinə də toxundu:** "Bu gün "cırtdan partiyalar" dövlətin maraqlarını ifadə etdikləri, parlamentdə olduqları üçün maliyyə alırlar. Böyük partiyalar isə bu maliyyədən kənarda qalıblar. İqtidar bunları nəzərə almalıdır. Ölkədə barış mühiti yaranmalıdır. Regionda ciddi proseslər gedir. Dövlətimiz üçün mürəkkəb situasiya yarana bilər. Ona görə də düşmənçiliyi aradan qaldırmaq lazımdır. Seçkilərdə boykot qərarı vermək yox, iştirak vacibdir. Hakimiyyətin müxtəlif strukturlarında müxalifyönlü insanlar çalışmalıdır. Bunlar olmayınca, siyasi qurumların fəaliyyətlərində irəliləyiş olmayacaq. Çünki köhnə təfəkkürlə, köhnəlmiş siyasi mübarizə metodları ilə uğur qazanmaq olmaz. Kimsə düşünür ki, Qərbin "ağ atlı oğlanı" gəlib Azərbaycanda hakimiyyəti dəyişəcək, çox yanlış fikirdir. Bu düşüncə ilə üzvlərini aldatmaq ən ağır cinayətdir. Bu dəyişiklikləri edəcək yeganə qüvvə cəmiyyətdir. Cəmiyyət dəyişməli, önü açılmalıdır. Bunlar baş verdikdə, yeni simalar ortaya çıxacaq. Cəmiyyət isə içərilərindən çıxan bu liderləri müdafiə edəcək. Hazırda əski siyasətçilər müdafiə olunmur. Bu qəbul edilməlidir. Bu, gün İsa Qəmbəri Arif Hacılı dəyişdi. Nə baş verdi? Hər hansı bir dəyişiklik oldu? Sabah Əli Kərimlini başqa biri dəyişsə belə, yenə də heç bir dəyişiklik olmayacaq. Toplananların yeri dəyişir, cəm dəyişmir".

**Politoloq mövcud vəziyyətin çıxış yollarından danışdı:** "Yeni təfəkkür, düşüncə tərzi olmalıdır. İqtidar qəbul olunmalı, əməkdaşlığa gedilməlidir. Bu gün hakimiyyətin çağırdığı dialoqlarda iştirak etmək lazımdır. Xalqın içərisinə gedilməsi vacibdir. Yerlərdə strukturlar yenilənməlidir. Xalq öyrəşdiyi sifətləri qəbul etmir. Bu sifətlər siyasətdən getməlidir. Ümumiyyətlə, hər şeyin əvəzlənməsinə ehtiyac yaranıb. Barış mühiti olarsa, müxalifət məhdudiyyətlərdən azad olar. İlbəil siyasi qurumlar tükənir və mərkəzi qərargahlarına sıxışdırılır. Bu gün onları qəzet səhifələrindən kənarda görmürük. Görmədiyi bir şeyə xalq niyə dəstək verməlidir?"

**Natiq Miri gəncliyin önə çıxmasına ehtiyacın olduğunu söylədi:** "Yeni sima dedikdə bu gənclərdən olacaq. Onlara ehtiyac var. Bu proseslərdə dəyişiklik olacaqsa, gənclik özü ortaya çıxacaq. Çünki yeni ideya, təfəkkürün daşıyıcıları gənclərdir. Amma bu gün onların qarşısı alınır. Təəssüf ki, bütün partiyalarda belədir. Çünki onlarda daxili demokratiya yoxdur. Heç bir partiya özünü təşkil edə, yenilənə bilmir. Əsas problem budur".

❑ **Cavanşir ABBASLI**

# İcra başçıları üçün avqust sınağı



# Kadr dəyişikliyinin yeni düsturu: "Əvvəl icra başçıları gedir..."

## Prezident İlham Əliyevin son aylar komandasındakı problemlərdən açıq danışmasının sirri çözülür; "biz hakimiyyət üçün çox vacibik" düşünən xeyli arxayınlaşmış məmur təbəqəsini islah etmək, belə görünür, indi daha çətindir; kadr islahatları şəhər və rayonların icra başçılarının dəyişdirilməsi ilə başlayacaq və sonra daha iri fiqurları əhatə edəcək

**Son aylar prezident İlham Əliyev keçirdiyi müşavirələrdə bir neçə dəfə hakimiyyət komandasındakı problemlərə toxunaraq ayrı-ayrı məmurların özbaşınalığından, dövlət əmlakının mənimsənilməsindən danışıb və sərt cəza tədbirlərinin görüləcəyini deyib.**

Uzun müddətdir ki, prezidentin öz komandasında ciddi dəyişiklik edəcəyi ilə bağlı mediada müxtəlif səpkidə müzakirələr getsə də, bu dəfə situasiya fərqlidir. Əvvəla, ona görə ki, komandada kadr dəyişikliyinin zəruriliyi barədə indi birinci şəxsin özü anons edir və bu, artıq hansısa mənbənin iddiası deyil. Prezident ayrı-ayrı məmurların rəhbərlik etdiyi nazirliklərin fəaliyyətindən narazılığını açıq dilə gətirir ki, bu da səbəbsiz deyil. Uzun illərdir ki, daxili faktorlar ciddi kadr dəyişikliklərini tormazlayırdı. İqtidarda üst mövqe tutanların "bizə dəysələr, müxalifət hakimiyyəti ələ keçirəcək" kimi arqumentləri daha keçərli deyil. "Köhnə qvardiya" da əvvəlki gücünü itirib və dəyişikliklərə qarşı sərt mövqeyini müdafiə edə bilmir. Dəyişikliyi zəruri edən daha bir ciddi səbəb həm də dünyanın yeni dəngələridir. İranın Qərblə anlaşmasından sonra Azərbaycan hakimiyyəti təkcə xarici siyasətdə deyil, daxildən də rahatlıq qazanmaqdadır. Daha bir mühüm amil isə neftin qiymətinin düşməsinin yeni iqtisadi reformalar tələb etməsidir. Büdcə əvvəlki kimi neft pulu ilə dolub-daşmır və yaranmış vəziyyət yeni iqtisadi şərtlərlə işləməyi diktə edir. Bunun üçün isə dövlət büdcəsini ata malı kimi mənimsəyən məmurların nəfsinin qarşısını kəsmək çox vacibdir.

"Biz hakimiyyət üçün çox vacibik" məntiqi ilə düşünən xeyli arxayınlaşmış məmur təbəqəsini islah etmək, belə görünür ki, indi daha çətindir. Hər nə qədər prezident səviyyəsində nəzarət olsa da, bəzi məmurlar artıq islaholunmaz həddə korlanıblar. Bəziləri isə o həddə maliyyə cəhətdən "şişib" ki, gözləri ayaqlarının altını görmür, bu kimi xəbərdarlıqlardan nəticə çıxarmırlar. Bu isə xüsusilə rayonlarda ciddi narazılıq yaradır.

Narazılıqları əvvəlki kimi yönəldəcək müxalifət olmasa da, iqtidardakı düşünən başlar yaxşı anlayır ki, bu sakitlik günlərin birində elə bil kortəbii sosial partlayışla nəticələnə bilər ki, bunun fəsadları çox ağır olar.

Bu səbəbdən də illərdir ertələnən ciddi kadr islahatları mütləq həyata keçirilməlidir. Prezidentin son çıxışları da sübut edir ki, dövlət başçısı dəyişikliklərin labüdlüyünü hamıdan yaxşı başa düşür və bunları reallaşdırmağa çalışacaq.

Məlumatlara görə, dövlət başçısı iqtisadi komandasını yenidən formalaşdırmaq niyyətindədir və bunun üçün ən radikal addımlara, hətta könüllü getmək istəməyən iri korrupsiyaçıları həbs etdirməyə belə qərarlıdır. Belə məlumatlar var ki, bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, bəzilərinin isə səlahiyyətlərinin məhdudlaşdırılması üzrə təkliflər paketi artıq hazırdır və ən yaxın zamanda elan edilə bilər.

"Kadr islahatları şəhər və rayonların icra başçılarının dəyişdirilməsi ilə başlayacaq". Məlumata görə, icra başçıları avqustun 5-dək məzuniyyətə göndərilib və onlar qayıtdıqdan sonra talelərinə aydınlıq gələcək. Bu barədə "Yeni Müsavat"a hakimiyyət kluarlarında gedən söz-söhbətlərdən məlum olub. İddiaya görə, hakimiyyət məmur-oliqarxların vurulması, səlahiyyətsizləşdirilmək üçün rayonların icra başçılarından başlamaq niyyətindədir. İqtidar istəyir ki, bütün rayonların icra başçılarını Prezident Administrasiyasına tabeçilik göstərən, başqa bir yerə bağlılığı olmayan kadrlardan formalaşdırsın.

Kadr dəyişikliyinin bu düsturu kifayət qədər realdır. Çünki inzibati idarəetmə mexanizmi bir neçə güc mərkəzinin əlində cəmləşdikdə hər hansı dəyişikliyi reallaşdırmaq çətinləşir. Hakimiyyət texnoloqları bəzi superoliqarxların getdikcə varlanmasını, iqtisadi güclərini artırmasını da nəzərə alaraq onların inzibati idarəetmə aparatı üzərində təsir rıçaqlarına malik olmasını təhlükəli hesab edir. Məlumatlarda o da deyilir ki, kadr dəyişikliyi təkcə icra başçılarının deyil, bütün sahələri, eləcə də Nazirlər Kabinetini də əhatə edəcək.

❑ "Yeni Müsavat"



Ramiz Yediyarov

# İcra başçısı sahibkara 66 min manat uduzdu

## Obyektin dağılmasına qərar verən başçı, ziyanı isə ödəyən dövlət...

**Azərbaycanda məhkəmə sahibkarın icra hakimiyyətinə qarşı qaldırdığı iddianı təmin edib. Gədəbəy rayonundan olan iş adamı Oqtay Əliyevin məhkəməyə üz tutmasına səbəb ona məxsus turizm obyektinin Gədəbəy Rayon İcra Hakimiyyəti tərəfindən qanunsuz olaraq sökülməsi olub. Sahibkar 170 min manata başa gələn həmin obyektin uçurulması ilə bağlı Gəncə İnzibati-İqtisadi Məhkəməsinə müraciət edib. Qafqaz.info-nun məlumatına görə, məhkəmə işi araşdırıb və xüsusi ekspertizanın rəyini nəzərə alaraq təsdiq edib ki, Əliyev Oqtay İbrahim oğluna məxsus həmin turizm obyekti həqiqətən də Gədəbəy Rayon İcra Hakimiyyəti tərəfindən əsassız olaraq sökülüb. Nəticədə məhkəmə bununla bağlı 16 fevral 2015-ci il tarixli qərar qəbul edib. İnzibati Prosessual Məcəllənin 68, 69, 75 və 85-ci maddələrinin rəhbər tutulduğu qərarda bildirilir: "Cavabdeh Gədəbəy Rayon İcra Hakimiyyətindən 66 min 626 manat tutulub iddiaçı Əliyev Oqtay İbrahim oğlunun xeyrinə ödənilsin".**

O. Əliyev deyir ki, Gəncə Apelyasiya Məhkəməsi İnzibati-İqtisadi Kollegiyası ona qarşı əsassız iddialarla çıxış edib. Onun fikrincə, icra başçısının müdaxiləsi ilə Apelyasiya Məhkəməsi qarşı tərəfi haqlı çıxarıb. Onun sözlərinə görə, sonradan məsələ ilə bağlı Ali Məhkəməyə müraciət edib. Və nəticədə Ali Məhkəmənin İnzibati-İqtisadi Kollegiyası da işi araşdıraraq 18 iyun 2015-ci il tarixdə sahibkarın xeyrinə qərar qəbul edib. Həmin qərarda bildirilir: "Gəncə Apelyasiya Məhkəməsi İnzibati-İqtisadi Kollegiyasının 14 aprel 2015-ci il tarixli, 2-1(104)-108/2015 saylı qərardadı ləğv edilsin. İş mahiyyəti üzrə baxılması üçün Gəncə Apelyasiya Məhkəməsinə göndərilsin. İddiaçı Əliyev Oqtay İbrahim oğlunun kassasiya şikayəti qismən təmin olunsun. Qərar qəbul edildiyi andan qüvvəyə minir".

Qeyd edək ki, Gədəbəyin Qalakənd kəndində O.Əliyevin inşa etdirdiyi turizm obyekti Gədəbəy Rayon İcra Hakimiyyəti tərəfindən heç bir əsas göstərilmədən və söküntü ilə bağlı məhkəmənin qərarı olmadan sökülüb. Halbuki obyektin tikintisi ilə bağlı aidiyyəti qurumlardan, xüsusən də ərazinin balansında olduğu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumundan rəsmi icazəsi olub. Belə ki, Gədəbəy Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin Qalakənd meşəbəyliyinin 0.20 ha sahəsindən istirahət turizm məqsədi ilə istifadə etmək üçün həmin müəssisə ilə 16 iyun 2013-cü il tarixdə 5 (beş) illik müqavilə bağlanılıb.

Maraqlı olan 66 min 626 manat vəsaitin sahibkara hansı hesabdan ödənilməsidir. Obyektin sökülməsinə qərar verən şəxs icra başçısıdır. Məhkəmənin qərarına görə isə vurulmuş ziyana görə kompensasiyanı Gədəbəyin İcra Hakimiyyəti - yəni dövlət ödəməlidir.

❑ E.MƏMMƏDƏLİYEV

# Nazirlik sahibkarları cərimələdi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi idarə və müəssisələrdə yoxlamalar aparıb. Yoxlamalar zamanı xüsusilə ticarət, ictimai iaşə, topdansatış mərkəzlərində və tikinti sektorunda əmək qanunvericiliyinə riayət edilmədiyi aşkarlanıb.**

Bu barədə virtualaz.org saytına nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Elman Babayev məlumat verib.

E.Babayev bildirib ki, bu ilin 6 ayında 8076 nöqsan aşkarlanıb. Nəticədə müəssisə rəhbərləri İnzibati Xətalar Məcəlləsinə uyğun cərimələnib. Cərimələrin 1047777 manatı isə dövlət büdcəsinə ödənilib.

Nazirlikdən xəbərdarlıq ediblər ki, müəssisə və təşkilatlarda, ticarət sektorunda əmək qanunvericiliyinin tətbiqi ilə bağlı yoxlamalar davam etdiriləcək.



YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015



# Ceyms Uorlik Qarabağı niyə yada saldı?

Hüseynbala SƏLİMOV

**Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik elə də sükutu sevən diplomat deyil. Bir vaxtlar bu adamın öz saytında Qarabağ problemi ilə bağlı yazdıqları az qala sensasiyaya çevrilirdi...**

Bu yaxınlarda o, Qarabağ problemi haqqında yenə də bir yığın söz deyib. Mən doğrusu, çox diqqət etdim, amma ağlım kəsən bir şey olmadı...

Yadımda yalnız o qaldı ki, amerikalı həmsədr bölgədə sülhməramlıların yerləşdirilməsinin vacibliyindən dəm vurub. Görünür, o, bunu ona görə deyib ki, ermənilər tez-tez azərbaycanlıların atəşkəs rejimini pozmasından şikayət edirlər. Bəli, səhv eşitmədiniz, şikayət edən ermənilərdir! Təsəvvür edirsinizmi?..

Adətən ABŞ və Fransa o vaxt Qarabağı yada salırlar ki, Rusiya bu problemin həllində azacıq fəallaşmış olsun. Doğrusu, Qarabağ problemini az qala bütünlüklə Rusiyanın öhdəsinə buraxan ABŞ-ın və Fransanın belə davranışı məni həmişə təəccübləndirib...

Amma dövlətlərin proseslərə, xüsusən də yaxşı bir şey vəd edən prosesə şərik çıxmağa cəhd etməsi də elə də təəccüblü deyil...

Mən demirəm ki, indi Rusiya Qarabağ problemində nəsə etməyə cəhd göstərir. Yox, şəxsən mənim belə bir təxminlərim yoxdur. Düzdür, Rusiyanın xarici işlər naziri tez-tez problemlə bağlı gurultulu bəyanatlar verir. Amma güman edirəm ki, bu, adi "akustika"dan başqa bir şey deyil. Əgər ciddi bir şey və ciddi bir niyyət olsaydı bu, hansısa formada sızardı...

Bir daha deyirik ki, gurultulu bəyanatlar və hətta sensasion çağırışlar edilir: gah problemin həllinin vaxtının çatdığı bəlli olur, gah da Qarabağ problemi ilə bağlı xüsusi sammitin çağırılmasının vacibliyi bildirilir...

Amma bunlar sözdən o tərəfə keçmir. ABŞ və Avropa heç olmasa Ukrayna ilə bağlı etdiklərini Qarabağ problemində də etsəydilər indi bəlkə də vəziyyət tamam fərqli olardı. Amma onlar belə etmirlər...

Əslində Ukrayna ilə bağlı da heç bir ciddi irəliləyiş yoxdur... Bilirsiniz, bəzən ABŞ və Qərb ölkələri o qədər acizlik göstərirlər ki, adam onları özünə siyasi arxa və ya siyasi partnyor seçdiyinə görə az qala utanır...

Bəli, acizlik göz önündədir. Ola bilsin ki, adi insanlar bunun fərqinə varmır. Amma ABŞ-a və Qərbə azacıq aidiyyatı olan adamlar dəfələrlə belə acizliyin şahidi olublar...

Qərəz, məsələ bunda deyil. Biz Qarabağ problemindən danışırdıq. Ona görə də mətləbdən çox da uzaqlaşmayaq...

Nə demək olar? Bilirsiniz, bir çox hallarda biz də məlumatsız olaraq mühakimə yürütmək, bəli, yetərli sayda olmayan faktların əsasında mühakimə yürütməyə məcburuq. Ona görə də bizim təhlillərimiz, analizlərimiz də bir növ natamam olur. Amma nə etmək olar?..

Biz əminik ki, hakimiyyətimiz Qarabağı və qarabağlıları çox sevir, Qarabağ torpağının bir qarışını da ermənilərə verməz... Bizə deyilən bunlardır. Və biz də bu kasad "bilgi"nin əsasında mühakimə yürütməliyik...

Əslində Ceyms Uorlikin və ya Sergey Lavrovun da bəyanatları bizə düşünmək üçün yetərincə qida vermir...

Ölkədə belə bir siyasi tezis qüvvədədir ki, insanlar çox şeyi bilməsələr də olar, əsas odur ki, onlar öz hakimiyyətlərinə və liderlərinə inansınlar...

Ona görə də Milli Mətbuat Gününün bu qədər təntənəli keçirilməsi məni, yumşaq şəkildə desək, bir xeyli təəccübləndirdi. O səbəbdən ki, əslində biz də çox və bəzən hətta olduqca çox məlumatsız oluruq...

Hamı fikirləşir ki, iş gedir, bizə demirlərsə, deməli, belə məsləhətdir. Amma belə olurmu, mənim əzizlərim? Yox, vallah, olmur...

Qərəz, bizdən də çox şey ummayın. Biz də elə sizin vəziyyətinizdəyik. Əgər kimsə belə hesab edir ki, guya biz jurnalistlər onlardan çox bilirik, çox böyük səhv edirlər...

Bizim demək olar ki, Azərbaycan qaynaqlarımız və mənbələrimiz yoxdur. Yalnız xarici mətbuatın və internetin yazdıqlarını oxumaq və təhlil etmək yolu ilə nəsə yazırıq. Bu isə qaranlıq otaqda qara pişiyi axtarmağa oxşayır, xüsusən də nəzərə alanda ki, bu qara pişik həmin qaranlıq otaq deyilən məkanda heç də həmişə olmur...

Ona görə də bir az əvvələ qayıtmaq istərdik. Ceyms Uorlik Qarabağı niyə yada saldı? Kimsə deyə bilər ki, bu, onun işidir. Amma Qarabağ əgər Uorlikin işi olsaydı bu vaxta qədər ortalıqda bir iş olardı...

İş isə yoxdur... O səbəbdən də belə ehtimalla kifayətlənməli oluruq ki, Uorlik, sadəcə, demək istəyib ki, biz də varıq...

# Obamanın elçisi Bakıda

## ABŞ dövlət katibinin baş köməkçisi Riçard Hoqland Azərbaycanda insan haqları ilə bağlı suala cavabdan yayındı

**İyulun 23-də xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycanda səfərdə olan ABŞ dövlət katibinin Mərkəzi və Cənubi Asiya ölkələri üzrə müavininin baş köməkçisi Riçard Hoqlandı qəbul edib.**

**Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, görüşdə nəqliyyat və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib.**



R.Hoqland ölkəsinin İpək Yolunun inkişaf etdirilməsi üzrə olan təşəbbüsləri dəstəklədiyini qeyd edərək Azərbaycanın bu istiqamətdə vacib rola malik olduğunu vurğulayıb. O, bu təşəbbüslərin həyata keçirilməsinin Avrasiya regionu boyunca sabitlik, çiçəklənmə və əməkdaşlığın inkişafına xidmət edəcəyini bildirib.

E.Məmmədyarov qeyri-neft sektorunun inkişafı strategiyasının vacib elementi olaraq, Azərbaycan tərəfindən nəqliyyat infrastrukturunun imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini diqqətə çatdırıb. Bu xüsusda, E.Məmmədyarov Bakı-Tbilisi-Qars və Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının kəsb etdiyi əhəmiyyəti qeyd edərək, Azərbaycanın tarixi İpək Yolunun dəmir-yolu, quru, dəniz, hava və hətta informasiya və kommunikasiya seqmentlərinin inkişafına əsaslı töhfə verdiyini vurğulayıb.

Həmçinin görüşdə Azərbaycan-ABŞ əlaqələrinə dair fikir mübadiləsi aparılıb və qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə edilib.

**"Diplomatiya və beynəlxalq münasibətlər ailə münasibətləri kimidir. Bəzən hər şey çox yaxşı gedir, mehribançılıq olur, bəzən isə soyuqluq yaranır".**

Virtualaz.org saytının məlumatına görə, bunu ABŞ dövlət katibi köməkçisinin baş müavini Riçard Hoqland səfirlikdə keçirilən mətbuat konfransında, jurnalistlərin Azərbaycanda insan haqlarının vəziyyəti və ABŞ-Azərbaycan münasibətləri ilə bağlı suallarını cavablandırarkən deyib.

**"Bu cür məsələlər müzakirə tələb edir və biz onu Azərbaycan hökuməti ilə müzakirə edirik. Əsas odur ki, tərəflər bir araya gəlsin, xoş niyyət, qarşılıqlı hörmət göstərib, münasibətləri bərpa etsin"**, - deyə Riçard Hoqland xarici işlər naziri Elmar Məmmədyarovla artıq səmərəli söhbət apardıqlarını xatırladıb.

ABŞ və İranın tarixi saziş bağladığını vurğulayan Riçard Hoqland deyib ki, Beynəlxalq Atom Enerjisi Agentliyi sazişin texniki aspektləri üzərində işləyəcək: **"Sanksiyalar ləğv edilməyəcək, bu proses 6 aydan sonra başlaya bilər. 6 aydan sonra vəziyyətin necə dəyişəcəyi məlum deyil".**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi barədə danışarkən ABŞ rəsmisi qeyd edib ki, onun ölkəsi ATƏT-in Minsk Qrupuna olan inamını saxlayır. Onun sözlərinə görə, tərəflər bu məsələni qarşılıqlı hörmət əsasında həll etməlidirlər.

# Müdafiə Nazirliyi: Naxçıvandan İrəvanı istənilən an darmadağın edə bilərik

**"Ermənistan mətbuatının məlumatına əsasən bu ölkənin müdafiə naziri Seyran Ohanyanın cəbhə xəttində, o cümlədən bir neçə dəfə Naxçıvan istiqamətində olması, oradakı mövqeləri yoxlaması düşmən tərəfinin narahatlığının bariz nümunəsidir".**




Bu barədə "Trend"in sorğusuna cavab olaraq Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.

Mətbuat xidmətindən bildirilib ki, qonşu dövlətin ekspertləri və şərhçilərinin də etiraf etdiyi kimi, Ermənistanın hərbi rəhbərliyinin cəbhənin müxtəlif istiqamətlərinə tələsik səfərləri erməni ordusundakı nizam-intizamsızlıq və özbaşınalığın qarşısını almağa cəhd etməklə yanaşı, müdafiə xəttində boşluqların olmasının sübutudur: "Silahlı Qüvvələrimizin bölmələri ermənilərin canlı qüvvəsini itkiyə məruz qoymaqla və mühəndis-istehkam texnikasını sıradan çıxarmaqla düşmənin öz müdafiə xətti boyu səngərlərini möhkəmləndirmək cəhdlərinin qarşısını dərhal alır. Müdafiə nazirinin göstərişinə əsasən, mövqelərimizin möhkəmləndirilməsi ilə yanaşı, qarşı tərəfin qoşunların təmas xətti boyu hərəkəti tam nəzarətimizdə saxlanılır və hər an düşmənə itki verilməsi ilə onların istənilən hərəkətinin qarşısı atəşlə alınır. Elə son günlərdə bölmələrimiz iriçaplı silahlar və kalibri daha iri minaatanlardan istifadə etməklə düşmənə xeyli ziyan vuraraq onun cəbhədə fəal olmaq cəhdlərinin qarşısını dərhal alıb".

**Eyni zamanda qeyd olunub ki, İrəvanın hərbi-siyasi rəhbərliyini hərbi cəhətdən narahat edən istiqamətlərdən biri də Naxçıvandır:** "Muxtar respublikanın ərazisinin strateji əhəmiyyəti nəzərə alınaraq orada Əlahiddə Ümumqoşun Ordusunun yaradılması haqqında Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən verilən qərar Naxçıvanın müdafiəsini yüksək səviyyədə təşkil etməyə imkan verib. Qorxu və vahimə içərisində olan Seyran Ohanyan və ümumilikdə Ermənistan tərəfi artıq anlamağa başlayıb ki, müasir silah-sursat, döyüş texnikası, aviasiya vasitələri, raket-artilleriya qurğuları, həmçinin "Smerç" reaktiv yaylım atəş sistemləri ilə möhkəmləndirilən, hərbi cəhətdən üstün Naxçıvandan Ermənistan ərazisində yerləşən hərbi obyektləri, o cümlədən İrəvanı nəzarətdə saxlayaraq istənilən anda darmadağın etməyə imkanımız var".

YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015

# Əziz dostum Steynar Gilə açıq məktubum - "Özümə kömək edirəm ki..."

**Стейнар Гил**

**Уважаемый Рауф, я Вас по старой дружбе поздравляю с днем рождения, но я должен Вам сказать, что Вы меня разочаровали. Если я правильно понял Вашу нынешнюю позицию, я Вас не могу поддерживать. Очень жаль. А Вы забыли 2003 год?**

**Rauf Arifoğlu**

Əziz Steynar, ad günümü təbrik etdiyiniz üçün minnətdaram. Mənə görə məyus olmanıza isə təsirləndim. Lakin məncə, buna gərək yoxdur. Çünki mən:

*1. 2003-cü ili unutmamışam;*

*2. Heç bir dəyər və prinsiplərimdən imtina etməmişəm;*

*3. Mövqeyimi dəyişməmişəm;*

*4. Media və demokratiya prinsiplərini satmamışam.*

Dəyişən Azərbaycandakı şərtlərdir, onun demokratik düşərgəsinin tam iflas olması, gücsüzləşməsi, heç bir fəaliyyət imkanının olmaması, müstəqil mətbuatın təklənməsidir. Azərbaycan sizin gördüyünüz ölkə deyil; ictimai fəallıq və müxalifət demək olar ki, yoxdur. Hər şey virtuala - facebook-a transfer edib.

Bütün bunlar yeni şərtlər, yeni seçimlər ortaya çıxarır.

**Əziz Steynar!**

Mən xatırlayıram ki, Siz məni Norveç səfirliyində ölüm təhlükəsindən qoruyanda, müdafiə edəndə bir söz söyləmişdiniz: "Rauf, mənə kömək et ki, sənə kömək edim..." Burada söhbət ondan gedirdi ki, mən Sizin və digər səfirlərin gəldiyi bir qərarı ictimaiyyətə Müsavat Partiyası adından və "Yeni Müsavat" qəzeti adından elan etməli idim. O da çox sadə bir mətn idi. Mən məhz Sizin təkidli məsləhətinizlə o mətni qəzetlərə açıqladım. Orada qeyd olunurdu ki, Müsavat Partiyası, demokratik qüvvələr İlham Əliyevlə dialoqa hazırdır, yaranan gərginliyin danışıqlar yolu ilə həllinə, həbslərin durdurulmasına çağırır. Bundan sonra Siz və bir neçə Qərb ölkəsinin səfiri yeni hakimiyyətə təzyiq etdiniz ki, baxın, müxalifət dialoq, danışıqlar istəyir, siz isə *(hakimiyyət)* onlara repressiya tətbiq edirsiniz. Siz o zaman mənə dediniz ki, danışıqlar apardığınız hakimiyyət təmsilçiləri deyirlər ki, müxalifət danışmaq istəmir, küçələrə çıxaraq, iqtidarı devirmək istəyir. Mənim bu açıqlamam Azərbaycan müxalifətini tam məhv etməyin, əzməyin qarşısını almaq üçün sizlərə arqument olmalı idi. Biz bunu etdik, sizinlə bir yerdə, ən azı, Siz bununla mənim həyatımı, ailəmi, qəzetimi xilas etdiniz, daha sonra isə həbsləri dayandırdınız, az sonra isə məni normal qaydada polisə təhvil verdiniz.

Mən bunları unutmamışam. Lakin o zaman bir çoxları, lap elə indiki kimi, mənə qorxaq, satqın, sınmış yazdılar.

Hansı ki, sonradan bilindi ki, bu, ən doğru addımdır, siyasi manevrdir və bununla da "Mən sizə kömək etdim ki, Siz də Azərbaycana kömək edəsiniz".

**Əziz Steynar!**

İndi Azərbaycan mediası tamamilə tək qalıb, artıq Bakıda Steynar Gil də yoxdur; Qərb paytaxtları İlham Əliyev hakimiyyəti ilə işbirliyini davam etdirir, onlara sanki Azərbaycanda demokratiya lazım deyil. Amerikanın, Böyük Britaniyanın radioları, televiziyaları bağlanıb; əməkdaşları istintaqa cəlb edilib. Onların hökumətləri həmin KİV-ləri qoruya bilmir.

Belə bir vəziyyətdə mən, təkbaşına növbəti bir manevrə imza atdım! "Özümə kömək etdim ki, qəzetimə, saytlarıma kömək edə bilim".

Hakimiyyətlə münasibətləri ən kritik anda yumşaltmaq, onların mənə, mətbuatın sağ qalan hissəsinə münasibətdə neytrallığını təmin etmək çox lazımdır. Hazırda mənim problemlərimi özümdən yaxşı bilən kimsə yoxdur. Hesab edirəm ki, mənə təklif olunan mükafatdan imtina etsəydim, hakimiyyətə , konkret, İlham Əliyevə meydan oxumuş sayılacaqdım. Bu cür "qəhrəmanlıq" hazırda mənə lazım deyil. Qəzetimə, həbsxanada olan həmkarlarıma da lazım deyil. Çıxılmaz vəziyyətdə olan müxalifətə də heç lazım deyil.

Mənə təraf edilən bir jestə normal cavab verdim. Bu, hakimiyyət tərəfindən də ciddi addım, xoş məram nümunəsidir.

Bundan əvvəl mənə təklif olunan mənzildən, digər imkanlardan imtina etmişdim. Hesab edirəm ki, 26 illik qəzetçilik fəaliyyətimə görə, hətta məni sevməyən Əli Kərimli də iqtidarda olsaydı, 180 nəfərin içərisində mənə «Əməkdar jurnalist» adı verərd. Yeri gəlmişkən, Əli Kərimlinin "Azadlıq" qəzeti prezidentdən iki ev, «Əməkdar jurnalist» adı, 307 min manat *(əvvəlki kursla 400 min avro)* alıblar və bu gün də onlardan imtina etməyiblər.

Görüşdə həbsdəki jurnalistlərlə bağlı heç bir məsələ qaldırmadım. Çünki mən ölkəmdəki gerçək durumu, harada nə demək lazım olduğunu və harada nə deməmək lazım olduğunu bilirəm.

Lakin görüşdən əvvəl yazdığım həbsdəki jurnalistlərin azad olması barədə növbəti xahiş məktubum hörmətli prezidentə çatmışdı.

Əgər yaxın zamanlarda heç olmasa bir jurnalist - bizim yazarımız Tofiq Yaqublu həbsdən azad olsa, bilin ki, burada az da olsa, mənim xidmətim var.

**Əziz Steynar!**

Xatırlayırsınızsa, səfirliyə gəldiyim ilk saatlarda Siz mənə və Hacı İlqara təklif etdiniz ki, bayraqlı səfir maşını ilə bizi Tibilisiyə aparasınız, siz o zaman həm də Norveçin Gürcüstandakı səfiri idiniz; lakin biz ölüm və həbs təhlükəsində olmağımıza baxmayaraq, dostlarımızı və ölkəmizi qoyub qaçmadıq, bundan imtina etdik.

Mən, bax, həmin o Rauf Arifoğlu olaraq qalıram.

İndi də mənim hər cür imkanım var ki, ölkədən gedəm. Çünki mənə bir qəzetçi kimi, yenə də çox çətindir. Hazırda mənə iflas həddinə gəlmiş müxalifətçi dostlarım da mənəvi "terror" edirlər; onlara elə gəlir ki, arxamızda heç bir güc olmadan mən onların hamısının əvəzindən yenə də, 2000-ci illərdə olduğu kimi, hakimiyyətlə vuruşmalı, prezidenti məhz onlara xoş olan leksikonla tənqid və təhqir etməliyəm.

Mənsə bunu etmirəm. Çünki çoxsaylı səbəblərim var. Üstəlik, mən belə bir müxalifətin hakimiyyətə gəlməsini də ölkəm, region üçün təhlükə sayıram. Onlar deqradasiyaya uğrayıblar; mənəviyyatları pozulub, qısasçı və kinli olublar; bir çoxu yaşlanıb və heç nəyə yaramırlar; siyasi reallıqlardan uzaqlaşıblar, aqressivdirlər, üstəlik, dünyanın gedişindən çox da geri qalıblar.

Başqa bir tərəfdən, qəzetlə siyasət yürütmək, hakimiyyət dəyişmək, müqavimət təşkil etmək mümkün və doğru deyil.

Mən indiki şərtlərdə, hakimiyyəti, prezidenti təriflәmədən, ona yaltaqlanmadan, yalan yazmadan qəzetçiliklə yoluma davam etmək qərarı vermişəm. Bunu məndən tələb edən də yoxdur. Ümumiyyətlə, hakimiyyətdən mənə hər hansı bir tələb mətni indiyə qədər də daxil olmayıb. Manevrləri və xəbər yayımı siyasətini mən özüm vəziyyətə uyğun həll edir, müəyyənləşdirirəm.

İsa Qəmbərin başqanlıqdan getməsindən sonra da əvvəldən verdiyim qərarla partiyadan getmişəm. Çünki partiya artıq hakimiyyətə real alternativ imkanlarını tamamilə tükədib. Yeni başqan bu imkanları yenidən yaratmaq üçün çalışır, lakin şərtlər ümidverici deyil.

Lakin hesab edirəm ki, "Yeni Müsavat" media qrupunun yaşamasını davam etdirmək üçün imkanlar hələ qalır, onlardan istifadə etmək lazımdır. Buna görə də siyasi düşərgələrlə məsafə yaratdım.

Bu imkanlar tükənsə və mən sifətimi saxlaya bilməsəm, qırmızı xətləri qoruya bilməsəm, qəzetçilikdən istefa verib, media qrupumu ya satıb, ya da bağlayıb, kitablar yazacam, ibadətlə məşğul olacam.

Bu dəfə də ölkəmdən çıxmadan, mühacirət etmədən.

**Əziz Steynar!**

**Ümid edirəm ki, Sizə yazdığım bu cavabda mənim davranışımla bağlı izahatlarım qane etməsə, nələri düz etmədiyimi mənə yazacaqsınız.**

**Sizin kimi əsil Dosta və böyük Demokrata indi daha çox ehtiyacı olan**

**Sizin Rauf Arifoğlu**





YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015



# Müstəqilliyimiz əbədidir

Zamin HACI
zaminhaci@gmail.com

“Birələri barmaqları ilə tutur! Barmaqları ilə! - Filipp Filippoviç qəzəblə qışqırdı, - üstəlik, mən anlamıram, siz bu birələri hardan çıxarırsınız?”

**(Mixail Bulqakov, “İt ürəyi”)**

Yapistlərin son illərdəki leksikonunda ən çox işlənən ifadələrdən biri də “müstəqil dövlətçiliyimizə qarşı qısqanclıq” söz birləşməsidir. Onlar yeri gəldi, gəlmədi, deyirlər ki, Azərbaycanın uğurlarına dünyada az qala hamı paxıllıq edir. Sən də qalırsan əlin üzündə. Çünki ölkənin harasına baxsan yırtıq-deşik bir şeylər görürsən, bilmirsən Almaniyadan tutmuş Amerikaya, Yaponiyadan Fransaya, Avstraliyadan Norveçə qədər bütün Yer planeti bu yamaqlı dövlətçiliyin nəyinə paxıllıq eləməlidir.

Müstəqil dövlətçiliyə niyə qısqanclıq edəsən ki, Moskvada Putin asqıranda Bakıda bütün yapistlər arasında quş qripi epidemiyası yayılır? İstənilən vaxt Volodya müəllimin gəmisi gəlir durur Bakı buxtasında, Artur müəllimin kabinetinə tərəf bir uzun fit çalır. Yəni demək istəyir sizin müstəqilliyinizə bir fıştırıq.

Cənub tərəfə gedirsən, açırsan telefonu, görürsən bələnçik bir mesaj gəlmişdir: “İrana xoş gəlmisiniz”. Fikirləşirsən, ey dadi-bidad, axı buralar bizim üçrəngli, müstəqil respublikanın ərazisi idi, burda niyə İrandan belə mesaj yayılır? Amma çox fikirləşmirsən, başını aşağı salıb gedirsən Təbrizdən aftafa gətirməyə.

Qərb tərəfə gedirsən... Yox, yaxşısı budur getməyəsən, çünki hal-hazırda o zonanı Zakir müəllim darmadağın edib ərazi bütövlüyümüzü bərpa eləməklə məşğuldur. Qarabağın azad olunması istiqamətində növbəti virtual yay hücumları vaxtıdır. Payız gəlsin, inşallah, sakitlik olar, sən də internetə girib Ağdamda otlayan donuzlara rahat baxarsan.

Şərq tərəf də onun kimi. Vay o günə istəyəsən üreyin bir sərinləsin, dənizdə çiməsən, hər yeri hasarlamış məmurların qarovul dəstələri adamı it sürütməsi eləyir, doğulduğuna peşman edirlər.

Bəs bu müstəqillik özünü nədə göstərir? Bəlkə dilim-ağzım qurusun, doğrudan bizim heç bir müstəqilliyimiz yoxdur? Vardır! Özü də əməllicə vardır. Sadəcə, ölçü sistemlərimiz fərqlidir. Gərək dünyaya yapistlərin gözü ilə baxasan, o zaman çoxlu müstəqillik əlamətləri gözünə girər.

Örnək üçün, bizdə jurnalistləri, qeyri-hökumət təşkilatı nümayəndələrini, müxalifətçiləri, ümumiyyətlə hökumətin xoşuna gəlməyən söz danışanları tutmaq müstəqilliyi var. Yapistlər Rəşadət Axundovu, Anar Məmmədlini, Tofiq Yaqublunu, Xədicə İsmayılı və adını çəksək bir qəzet dolacaq onlarla başqa günahsız insanları müstəqil şəkildə zindana salıblar. BMT insan haqları konvensiyaları, Avropa Məhkəməsi-filan bizim ərazidə keçmir. Sırf müstəqillik. Bəlkə arada Rusiyadan, İrandan-zaddan “filankəsi də tutun” göstərişi gələ. Qalan adamları həmişə özümüz tuturuq, öz işverənlərimiz, öz zorakılıq aparatımız var. Tarix göstərib ki, bu məsələdə yapistlərin müstəqil siyasətinə doğrudan təsir gücü yoxdur. Hər kəsin azadlığı, ya da dustaqlığı, yaxud vətəndaşlıqdan çıxarılıb qovulması yalnız və yalnız cənab prezidentin səlahiyyəti daxilindədir. Bu müstəqilliyi yaxşı hesab edirsinizsə başqa məsələ. Amma sivil dünyada, siyasi ədəbiyyatlarda bunun adına “avtoritarizm” deyirlər. Hesab eləyək müstəqil avtoritarizmdir, ləzzət alaq. 90-cı illərin gerizəkalı milli istiqlalçı lideri necə demişdi? “Öz millətimin diktatoru, başqa millətin demokratından əzizdir”. Bax, həmin xətdir.

Yaxud Bakıda binaları nə ilə üzləmək lazımdır, deputatxanaya hansı siyahı ilə kimlər girsin, diplomat açılmasa rüşvəti “atvyorka” ilə, yoxsa avtogenlə kəsib çıxaraq, yol təmirində hər metrdən neçə manat yemək olar, gömrükdə yığımın hansı faizi rüsumdur, monopoliyaya alınmayan sahələr qalıbsa kimi cəzalandırmaq lazımdır, Biləcəridə hamam qayırmaq üçün icra başçısına neçə kisə pul verilməlidir və sairə işlər də müstəqil şəkildə həyata keçirilir. Bu işlərin görülməsinə nə Obamanın, nə Merkelin təsir gücü vardır.

O üzdən bizə paxıllıq edirlər. Çünki Angela Merkelin həyatda ən böyük arzularından biri Binəqədidə vulkanın üstündə özünə ev tikmək imiş.

# Nüvə anlaşması İranı hara aparacaq - Şərqə, yoxsa?..

## İranlı analitik Məsud Sədr hesab edir ki, bu anlaşma ilə ölkənin qarşıdakı 10 illik siyasət binasının kərpicləri kəsilməyə başlayıb...



**İranla “altılıq” ölkələri arasında nüvə anlaşması İslam Respublikasında siyasi və hərbi dairələrdə birmənalı qarşılanmadı. Ali dini lider bu prosesə dəstək versə də, anlaşmadakı bəzi müddəalar, xüsusən də raket mərkəzlərinin təftişə açılması hərbi dairələrin etirazına səbəb olub. Bir neçə gün əvvəl SEPAH-ın komandiri İbrahim Cəfəri bu müddəanın İran üçün “qırmızı xətt” olduğunu və raket mərkəzlərinin təftişinə icazə verməyəcəklərini açıq şəkildə bəyan edib.**

Bundan başqa, İranın ABŞ-la yaxınlaşmadan sonra Yaxın Şərq siyasətində dəyişikliyin olacağı ilə bağlı iddialar da ortaya atılıb. Doğrudur, bu cür iddialar təkzib olunur. İranlı jurnalist, siyasi prosesləri tədqiq edən araşdırmaçı Məsud Sədr deyir ki, İranla “altılıq” ölkələri arasında anlaşma yeni imkanlar yaratmaq və ən əsası, sülh gətirməsi baxımından İran xalqı üçün əvəzedilməz hadisədir. Ancaq onun sözlərinə görə, bu anlaşma ölkə daxilində siyasi qüvvələr arasında ciddi fikir ayrılıqlarına da səbəb olub. İran insanı xatırlayır ki, 80 il əvvəl Rusiya və Britaniya İran dövlətinə xəbər vermədən bu ölkəni öz aralarında bölürdü, yaxud 60 il öncə ABŞ kəşfiyyatı bir gecədə İranın ən çox sevilən baş nazirini devirirdi və həttа 40 il əvvəl İran şahı ABŞ prezidenti qarşısında necə mütі davranırdı: "Bu tarixi təcrübələri yaddaşında saxlayan bir xalq əlbəttə ki, indi öz təmsilçilərini masanın bir tərəfində və dünyanın 6 gücünü masanın o biri tərəfində görəndə müəyyən dərəcədə sevinib və hətta güvənir. Ona görədir ki, bu 12 ildə müxtəlif siyasi cərəyanlar iqtidara gəlsələr də ən gərgin vaxtlarda belə müzakirə prosesinə qarşı pozitiv mövqedən yanaşıblar. H. Ruhani isə seçki kampaniyalarında bu çıxılmaz və sonu olmayan bir dalanda dayanan məsələni çözəcəyinə söz verib və hakimiyyətinin ilk aylarından bu işə əmək sərf edib".

**Ancaq yazarın sözlərinə görə, Həsən Ruhaninin müxalifləri onu və komandasını nüvə anlaşması üçün həddən artıq can atdığına və anlaşma əldə edilmək üçün ölkənin iміcinə zərər verə biləcək addımlar atacağına görə tənqid edirdi:** “Bu tənqidlər Cenevrə anlaşması ilə ən pik həddinə gəlib çıxdı və müxalifət o anlaşmanı "nüvə xolokostu" adlandırdı. Tənqidlərin ikinci dalğası Lozanna bəyannaməsində baş verdi. Bu dəfə də müxalifət sərt tənqidlərlə çıxış etdi. Əsas problem atom məsələsindən əlavə İranın raketləri, Suriya, Yəmən və “Hizbullah” məsələsi kimi mövzuların da müzakirələrdə Qərb təmsilçiləri tərəfindən hallandırılması idi. Bu iki tənqid dalğasını nəzərə alsaq, son anlaşmaya qarşı çox az və daha yumşaq tənqidlərin şahidi olduq. Bu da onu göstərir ki, bu anlaşma müxalifətin gözlədiyi qədər də faciəvi deyilmiş və Ruhani hökuməti müxalifətin səsini çıxarmayacağı dərəcədə müsbət bir anlaşma əldə edə bilib. Bu arada İslahatçılar cinahı - iqtidar yandaşları - böyük bir kampaniya başlayaraq, bu anlaşmanı tamam bir zəfər kimi qələmə verib, dövlətin nailiyyətli siyasətlərinin açıq göstəricisi kimi göstərirlər. Amma qarşı tərəf, yəni müxalifət bu anlaşmanı bəlkə son nöqtəsini qoyacaq bir prosesin başlanğıcı kimi görür. Müxalifət hər dəfə ABŞ və Avropa İttifaqının İrana qarşı bu anlaşmanı etibardan sala biləcək addımlar ata biləcəyini nəzərə alaraq hələ kamil bir nailiyyət yoxdur, deyə şənliyə səbəb görmür".

**M.Sədr deyir ki, nüvə anlaşmaları ilə bağlı fikir ayrılıqları anlaşmanın özündən çox onun haşiyələri ilə bağlıdır.**

**Jurnalistin sözlərinə görə, indi əsas mövzu Amerikanın İranın ballistik raketləri ilə bağlı qərarlarıdır:** “Baxmayaraq ki, müzakirə heyəti "biz ancaq atom məsələsi ilə bağlı müzakirə aparırıq" deyirdi, amma “bu raketlər atom bombası daşıya bilər” deyə Amerika bu məsələni tez-tez gündəmə gətirir. Ondan əlavə, İranın bəzi hərbi hissələrində ola biləcək monitorinqlər də fikir ayrılığını dərinləşdirib. İran dəfələrlə deyib ki, öz müdafiə gücünü müzakirə mövzusu görmür və heç kimin bu mövzularda müzakirə aparmaq səlahiyyəti yoxdur. Bunu nəzərə alaraq BMT TŞ-nin dünənki *(iki gün əvvəlki - K.)* qərarında olan bu məsələlərlə bağlı bəndləri İran tərəfi qəbul etmədiyini bildirib. Bu gün isə müzakirələrin əsas himayəçilərindən biri və İran xarici siyasətinin qara cəbhəsi kimi tanınan Əliəkbər Vilayəti açıqcasına “biz istədiyimiz vaxt, lazımi silahı istehsal etmək haqqına malikik” dedi. SEPAH-ın baş komandiri isə bu məsələ ilə bağlı 2 gün əvvəl təkid etmişdi. İndilikdə əsas problemlər bu sahədədir. Amma fikir ayrılıqlarının ölkə daxilində dərinləşib, siyasi gərginlik yaratmasına inanmıram. Ona görə ki, istər iqtidar, istərsə də müxalifət bu məsələlərdə o qədər də fərqli düşünmürlər və bu sahənin “qırmızı xətt” olduğunu danışırlar. İndi əsas məsələ budur ki, bu anlaşma bir proje idi və indi, yaxud ən uzağı 9 ay içində bitəcək, yoxsa İranla ABŞ arasında müxtəlif mövzuların müzakirəsi üçün bir prosesin başlanmasına səbəb olacaq? İki tərəf - iqtidar və müxalifət - açıqcasına söyləməsələr də, pərdə arxasında beyinləri məşğul edən mövzu hazırda budur".

**Müəllifin fikrincə, anlaşma İranın bölgə siyasətinə təsir etməyəcək:** “İranın xarici siyasətini iki qola ayırmaq olar. Birincisi, dəyişilməz təməl yaxud strateji əlaqələr, məsələn, "Hizbullah", Suriya, İraqın ərazi bütövlüyü və müqavimət qrupları ilə əlaqələr. Bu qrupdan olan əlaqələr siyasi cinahların və dövlətlərin dəyişməsi ilə heç dəyişmir. Bunun əyani nümunəsini Suriya məsələsində gördük. Ruhani dövlətinin Suriya siyasəti Əhmədinejadın siyasətindən o qədər də fərqlənmir. Amma bir də taktiki olan və dəyişilə biləcək əlaqələr var. Bu arada Rusiya, Çin, Hindistan və məsələn, Cənubi Amerika ölkələri ilə olan əlaqələrdir. Bura qədər İrana qarşı olan sanksiyalarından əsas fayda götürən ölkələr Rusiya və Çin olub ki, indi bu sanksiyaların aradan qaldırılması ilə və Avropa şirkətlərinin İrana qayıtması ilə təbii ki, bu iki ölkənin yerləri İranın siyasi iqtisadiyyatında dəyişəcək. Bu günlər alman şirkətlərinin İrana səfərinə şahidik, gələn həftələrdə isə başqa ölkələrdən olan şirkətlərin gəlməsini gözləmək olar. Bu arada Fars körfəzi ölkələri də təsirlənəcək. İranın daxili siyasətində Anqlo-sakson, yaxud Qərbi Avropaya meyli qollar daha da güclənəcək.

Amma nəzərdən qaçırılmayacaq bir məqam var. O isə budur ki, İran iqtisadiyyatı Türkiyənin Ərdoğan dönəmində alışdığı “sıcak para” deyilən xarici sərmayələrdən asılı olacaqmı, yoxsa yox? Qısa müddətdə bu “sıcak paralar” ölkə iqtisadiyyatına müsbət təsir etsə də - xüsusilə 5-6 illik ağır sanksiyalar altında olan İran iqtisadiyyatı kimi - uzun müddət davam etdikdə ölkənin bütün sahələrdə siyasətlərini dəyişdirmək gücünə malik ola bilir. Deməк, xarici sərmayəyə dayanan güclü iqtisadiyyat ölkə siyasətinin zəif cəhətinə səbəb olur. İndi əsas məsələ budur: İran regionda uzunmüddətli sıfır problem səviyyəsinə gəlib çatacaqmı? Məncə, bu xəmir hələ bundan da artıq su istəyəcək.

Region, xüsusilə ərəb ölkələri o qədər ağır və sürətli dəyişikliklərə məruz qalıb ki, İranın bu dəyişikliklərə qarşı mövqeyindən rahatlıqla danışmaq olmur. Diqqətə almalıyıq ki, bu proqnozlar hamısı son anlaşmanın istənilən yolda irəliləməsi şərti ilə bağlıdır və bu proses dayanarsa yaxud yolundan azarsa, heç nə olmamış kimi bir duruma düşə bilərik".

**M.Sədrə görə, gələn il baş verəcək hadisələr İranda həm anlaşmanın gələcək taleyi, həm də siyasi proseslərin axarını müəyyən edəcək:** “Avropanın İranın 80 milyonluq bazarı, fabrik-zavodlar inşa etmək üçün təhlükəsiz və əlverişli şəraiti, Rusiyaya qarşı sanksiyalardan yaranmış problemləri və gələcəkdə qaz və neftlə Avropa enerji probleminin həllində rus qazının qarşısında olan alternativliyi Avropa üçün bu məsələnin həllini maraqlı edir. Başqa tərəfdən isə İranın daxili siyasətində hər şey bu anlaşmaya bağlanıb desək, yanılmarıq. 8 ay sonra İranda çox önəmli parlament seçkiləri olacaq və əlbəttə, ondan bir neçə ay sonra isə prezident seçkiləri. Bu seçkilərin taleyinə bu anlaşma böyük miqyasda təsir edə bilər. Belə demək olar ki, İranın gələn 10 illik siyasət binasının kərpicləri anlaşma gündən kəsilməyə başlayıb".

**❑ KƏNAN**

YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015

**"Qərb diplomatlarının Bakıya səfərinin intensivliyinin artdığı danılmaz bir faktdır və təfərrüatlara dərindən bələd olmadan belə, bunu müsbət hadisə kimi dəyərləndirmək lazımdır. Çünki son bir ildə meydana çıxan soyuq savaş əhval-ruhiyyəsinin təşəbbüskarı Azərbaycan deyildi. Obrazlı söyləsək, bunu bizim müharibəmiz adlandırmaq olmazdı".**

# Bakı Avropa ilə barışa biləcəkmi?



**Zahid Oruc:** "Qərb Azərbaycanın bir sıra şərtlərini qəbul edəcək"



**Arzu Nağıyev:** "Son görüşlərdə mövqelər ortaya qoyuldu və yəqin ki, müsbət bir nəticə hasil olacaq"



**Hikmət Hacızadə:** "Əfsus, hələ ki vəziyyət dəyişməyəcək"

Deputat, Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü **Zahid Oruc** bunu "Yeni Müsavat"a açıqlaması zamanı bildirdi. Son zamanlar Avropa rəsmilərinin Bakıya səfərlərinin intensivləşməsi şəraitində Azərbaycanla Avropanın münasibətlərindəki gərginliklərin arxa plana keçəcəyi barədə gözləntilərə münasibətini bölüşən Z.Oruc qeyd etdi ki, əslində Qərblə münasibətlərdə gərginliyin olmasında rəsmi Bakı maraqlı deyil: "Ölkəmiz əleyhinə kapmaniya az qala diplomatik əlaqələrin bütün sahələrini əhatə etmişdi və son raundda hətta neft-qaz sferasına da gəlib çatacağını düşünməyə əsaslar verirdi. Hərbi-təhlükəsizlik sektorunda dayandırılmış danışıqlar, Amerika ilə yüksək dialoq formatının çöküşü, ən sonda rəsmi Bakını Birləşmiş Ştatların dövlət müstəqilliyi günündə qat-qat aşağı statusda təmsilçiliyi ilə nəticələnmişdi. Lakin artıq Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun və ABŞ dövlət katibinin köməkçisi Riçard Hoqlandın ölkəmizə təşrif buyurması prezident İlham Əliyevin verdiyi siqnalların Qərbdə qəbul olunduğunu söyləməyə imkan verir". **Bəs Avropa dairələri hansı hadisələr üzərindən təhlillər aparıb yenidən əvvəlki xəttə qayıtmağı qət etdilər? Z.Oruc:** "Burada Bakını itirməyin siyasi cinayətə bərabər olmasını qabartmağa bir ehtiyac yoxdur. Çünki söhbət təkcə alternativ neft-qaz resursunu itirməkdən gedə bilməz. Baxın, son günlər Bakı-Novorossiysk kəməri ilə neftin nəqli yenidən bərpa olunub. Berlində və Brüsseldəki səhv qərarlar Rusiyanın bir vaxtlar yanlış siyasəti ilə itirdiyi iqtisadi dayaqlarını bərpa etməyə fürsət verdi və razılaşın ki, bunlar digər nüfuz savaşı subyeklərinin maraqlarını təhdid etməkdədir. Lakin Qərb Bakının timsalında uzun on illərdən sonra sanksiya və embarqo altından çıxararaq yenidən siyasi və iqtisadi meydan verməyə çalışdığı İranla birgə qurmaq istədiyi geopolotik formatı itirməkdən narahat olduğu üçün təzyiq və tələb dilində danışmağın səmərəsizliyini dərk edib".

**Deputat deyir ki, ABŞ-ın dövlət katibi Con Kerrinin adı ilə bağlı olan inqilab planının deşifrə olunması fonunda belə yüksək rəsmin hansı təkliflərlə gəldiyini proqnozlaşdırmaq mümkündür:** "Qərb Azərbaycanın bir sıra şərtlərini qəbul edəcək. İlk növbədə, Qarabağı dəyənəyi çevirməklə onun separatçı rəhbərliyinə süni maliyyə və siyasi nəfəs verməyin yolverilməzliyini qəbul etmək gərəkdir. Əks halda, Azərbaycanın Ukrayna məsələsində hətta neytrallığına belə ümid bəsləmək olmaz. İkincisi, hakimiyyəti bütün beynəlxalq QHT-lərin əli ilə şiddətli bir şəkildə vurmaq siyasətindən geri durmaq lazım olacaq. İndi heç kəsə sirr deyil ki, dünyada böyük auditoriyası ilə seçilən ağır informasiya artilleriyaları - CNN, BBS və digər kanallar heç də müstəqli media quruluşları olmayıb da müxtəlif mərkəzlərə bağlıdılar. Adi nəzərlə hamı görə bilər ki, iyun ayı ilə müqayisədə Azərbaycanı vuran təhlilçi və sabotajçı qrupların əks-təbliğat eyforiyası xeyli azalıb. Deməli, onlara müvafiq tapşırıqlar xarakterdə dəyişib". **Z.Oruc deyir ona görə də Qərb çalışacaq ki, Bakını ən azı yenidən fəth etsin və buna görə də ölkəmiz uğrunda savaşın şiddətinin artacağını proqnozlaşdırma mümkündür:** "Bütün deyilənləri ümumiləşdirsək, Rusiyanın Qarabağ ətrafında Bakı ilə razılaşmasının Qərbin mənafelərinə zidd olduğunu, bunun Qafqazlarda fərqli düzən yaradacağını hesablayanlar təzədən Bakının könlünü almağa ümid bəsləyirlər. Ancaq Barak Obamanın dönəmində Amerika-Azərbaycan əlaqələrinin tam yaxşılacağını gözləmək əbəsdir".

"Azərbaycan Avropa ilə küsülü deyildi ki, barışsın. Biz dünyəvi dövlətik. Siyasətdə dost məfhumu olmur, maraq məfhumu olur. Məhz soyuqluğun yaranması da bəzi maraqların üst-üstə düşməməsi idi". Bu fikirləri isə **politoloq Arzu Nağıyev** söylədi.

**Onun sözlərinə görə, Qərbin müxtəlif siyasi qurumları anti-Azərbaycan xəttini seçib, öz həyat tərzini,fikirlərini bizə diktə etməyə çalışırdı, lakin bu, baş tutmadı:** "Necə ola bilər ki, hansısa dövlətin qanunverici orqanı Azərbaycan üçün qanun hazırlasın və ya bunu təklif etsin. Bu baxımdan Bakı və Avropanın bir sıra qurumları arasında narazılıqlar olsa da, son görüşlərdə buna aydınlıq gətirildi. Biz Avropaya bir nömrəli problem kimi Dağlıq Qarabağ münaqişəsinin həllini təklif edirik, onlar isə hansısa qeyri-hökumət təşkilatının rəhbərinin həbsindən narahat olduğundan danışır. Zənnimcə, son görüşlərdə mövqelər ortaya qoyuldu və yəqin ki, müsbət bir nəticə hasil olacaq". **Kremlin Bakı-Qərb anlaşmasına imkan verməyəcəyi barədə yanaşmalara gəldikdə, A.Nağıyev qeyd etdi ki, Rusiyanın hazırda vəziyyəti heç də ürəkaçan deyil:** "Bu, istər iqtisadi, istərsə də digər sahələrdə özünü büruzə verir. Son vaxtlar İran və Kubada baş verən proseslər müəyyən mətləblərdən xəbər verir. Yəni istənilən halda Rusiya bir sıra güzəştlərə getməyə məcburdur. Bu baxımdan Moskva müəyyən şərtlər müqabilində Qərbin həyata keçirməyə çalışdığı siyasəti dəstəkləməlidir. Bu, eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin həllinə də sirayət edəcək. Yəni Rusiyanın imkan verib - verməyəcəyi önəmli deyil, o, bu proseslərə kömək etməlidir ki, öz vəziyyətini tənzimləsin".

**Politoloq Hikmət Hacızadə isə hesab edir ki, Avropa ilə qalmaqal insan haqları sferasında yarandı və bu situasiya hələ bir müddət qalacaq:** "Nə Avropa buradakı hüquq pozuntularına göz yumacaq, nə də ölkəmizin rəhbərliyi bu tənqidləri saya salacaq. Bu, ona görə baş verir ki, Avropanın Qarabağ məsələsinə ciddi girişməyə, Rusiya ilə yeni qarşıdurma yaratmağa taqəti, gücü yoxdur. Ona görə də elə hey uzaqlardan "narahatçılıq" bəyanatlarını göndərirlər. Bu isə ölkə rəhbərliyimizi qane etmir və tənqidləri qəbul etməyə vadar eləmir". **H.Hacızadəyə görə, digər tərəfdən, Azərbaycan enerji resursları Avropa üçün o qədər də vacib deyil ki, onları qanun pozuntularımıza göz yummağa məcbur etsin:** "Odur ki, məncə, vəziyyət olduğu kimi qalacaq: Avropa ölkəmizdə insan haqları problemindən bəyanatlar verəcək, hökumətimiz isə - "Almaniya çökür, Amerikada zəncilləri incidirlər" kimi cavablar verəcək. Əfsus, hələ ki vəziyyət dəyişməyəcək. Sonrasını görərik..."

❑ **E.PAŞASOY**



Polad Bülbüloğlu

# Şuşaya qaçan rus milyarder İnterpola verilir

## Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu German Sterliqovun hərəkətlərini təxribat hesab edir

**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Rusiya vətəndaşı German Sterliqovun Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinə səfəri, orada Azərbaycan dövləti və ölkənin ərazi bütövlüyünə qarşı etdiyi çıxışlar və çağırışlarla bağlı "Exo Moskvı" radiosuna müsahibə verib.**



German Sterliqov

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, canlı efirdəki müsahibə zamanı aparıcı Vladimir Varfolomeyev Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən G. Sterliqova qarşı cinayət işinin qaldırılmasının səbəbləri ilə maraqlanıb.

P.Bülbüloğlu bildirib ki, Dağlıq Qarabağ rəsmi olaraq bütün dövlətlər tərəfindən, o cümlədən Rusiya Federasiyası tərəfindən işğal olunmuş Azərbaycan ərazisi kimi qəbul olunur. Bu terminin münaqişə ilə bağlı beynəlxalq qətnamə və sənədlərdə, o cümlədən BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamədə əks olunduğunu, Rusiyanın da TŞ-nin üzvü kimi bu qətnamələrə səs verdiyini, sözügedən ərazilərin de-yure Azərbaycan əraziləri olduğunu deyən səfir, bütün dünya dövlətlərinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını vurğulayıb.

Münaqişənin gec-tez həll olunacağına əminliyini ifadə edən P. Bülbüloğlu hər bir insanın işğal olunmuş ərazilərə səfər etməklə bağlı cavabdehlik daşıdığını söyləyib. O, Azərbaycan Xarici İşlər Nazirliyinin "qara siyahı"sında adları qeyd olunan şəxslərin Azərbaycan tərəfinə əsaslı müraciət edəcəkləri təqdirdə, həmin şəxslərin adlarının siyahıdan çıxarılması məsələsinə baxıla biləcəyini nəzərə çatdırıb. Lakin konkret G. Sterliqovun məsələsinə gəldikdə, P. Bülbüloğlu qeyd edib ki, həmin şəxs işğal altında olan ərazilərə qanunsuz səfərdən, Dağlıq Qarabağı Ermənistan ərazisi kimi tanıtmaq cəhdlərindən əlavə, jurnalistlərə, müxtəlif iş adamlarına dəvətlər edib ki, bu da Azərbaycan Respublikası dövlətinə, ərazi bütövlüyünə qarşı çağırış kimi qəbul olunur. Bu səbəbdən də Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Azərbaycan Respublikasının "Dövlət sərhədi", "Pasportlar haqqında" qanunlarının və ən əsası, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin ciddi şəkildə pozulması səbəbindən cinayət işinin başlandığını söyləyən səfir G.Sterliqovun hərəkətlərini təxribat adlandırıb və münaqişə zonasında ataşkəs rejiminin pozulduğunu xüsusi vurğulayaraq Rusiya vətəndaşlarını münaqişə zonasına səfər etməkdən çəkinməyə çağırıb.

P. Bülbüloğlu G. Sterliqovun cinayət məsuliyyətinə cəlb olunmasının zəruriliyini qeyd edərək, məsələ ilə Azərbaycan Respublikasının Baş Prokurorluğunun məşğul olduğunu və onun cinayət məsuliyyətinə cəlb olunması üçün Azərbaycan və Rusiya arasındakı mövcud geniş hüquqi bazanın, həmçinin İnterpolun imkanlarından istifadə ediləcəyini açıqlayıb.

Canlı efir zamanı G. Sterliqovun işğal olunmuş Azərbaycan ərazilərinə səfəri, Bakının buna sərt reaksiyası ilə bağlı sorğu aparılıb. Sorğunun nəticələrinə görə, səs verənlərin 78%-i Azərbaycanın mövqeyini dəstəkləyib.

**Sabiq daxili işlər naziri, Azərbaycan Milli Demokrat Bozqurd Partiyasının sədri İsgəndər Həmidov "Yeni Müsavat"a geniş müsahibə verib. Partiya sədri söhbətimizdə bir sıra aktual məsələlərlə bağlı danışıb. Kəlbəcər girovları, Qarabağın taleyi, parlament seçkiləri, prezidentin baş redaktorumuzu təltif etməsi ətrafında yaşanan ajiotaj və digər məsələlərdən bəhs edən söhbətimizi təqdim edirik.**

# "Belə çıxır ki, o həmişə döyülməli, söyülməli, tutulmalı idi?"

## İsgəndər Həmidov: "Müxalifəti 20 il "Yeni Müsavat" qəzeti saxladı"

***- İsgəndər bəy, Şuşada saxlanılan Kəlbəcər girovları növbəti dəfə əfv ərizəsi yazmaqdan imtina edib, yəqin xəbəriniz var...***

- Təbii ki, xəbərim var. Mən Dilqəmi də, Şahbazı da, rəhmətlik Həsəni də çox yaxından tanıyırdım. Özü də girov götürüləndən çox-çox qabaqdan... Onların fəaliyyətindən, gedib-gəlmələrindən də xəbərim var idi. Əfv ərizəsi onların həyatını xilas edə bilər. Amma mən inanıram ki, onlar heç zaman əfv ərizəsi yazmayacaqlar. Bilirsən niyə? Ən azı ona görə ki, ondan qondarma respublikanın qondarma məhkəməsini də, prokurorluğunu da tanıyarlar, işğala da qanunilik donu geyindirmiş olarlar. Onlar mərdi-mərdanə oğlanlardır, bilirdilər hara gedirlər, onları nə gözləyir, nə ola bilər... Onların əfv ərizəsini yazmamasını mən alqışlayıram. Amma digər tərəfdən də böyük narahatlığım var. Əgər xatırlayırsansa, səninlə bir il öncə etdiyimiz söhbətdə demişdim, onları elə hala salacaqlar ki, fiziki durumu çox pis olacaq. İndi mən onların şəkillərinə baxıram, Dilqəmi görürəm, ürəyim ağrıyır, dağ boyda oğlan nə hala düşüb... Ancaq yenə də onların əfv ərizəsi yazmamasını alqışlayıram. Mən onlarla fəxr edirəm. Yenə də bütün kəlbəcərlilərə müraciət edirəm. Kəlbəcərlilər elə etməlidirlər ki, Dilqəmin, Şahbazın və rəhmətlik Həsənin ailəsi heç bir çətinlik görməsin. Bildiyimə görə, hökumət tərəfindən də onlara yardım olunur, hətta Dilqəmin ailəsinə ev də veriblər. Mən bunu da alqışlayıram.

***- Bugünlərdə bir xəbər yayıldı ki, ermənilər Qarabağ savaşında itkin düşənlərin araşdırılması üçün Azərbaycan tərəfi ilə danışıqlara hazırdır. 4 mindən artıq soydaşımız girov və itkin düşmüş sayılır. Bu mənada ermənilərlə belə bir ortaq fəaliyyətə başlamağı faydalı sayırsınızmı?***

- Təbii ki. Daşaltı əməliyyatında itkin düşən qəhrəman oğullarımız, Kəlbəcərdə, Murovda qarın altında qalan çoxsaylı igidlərimizlə bağlı həqiqətlər üzə çıxarıla bilər. Yəqin ki, itkinlərimizin çoxu artıq həyatda yoxdur, amma sağ qalanları da var. Mən danışıqların tərəfdarıyam. Amma onların məzarlarının tapılması, meyitlərin müəyyənləşdirilib qaytarılması ağır məsələdir.

***- Qarabağ ətrafındakı gəlişmələri, intensiv danışıqları, "sülhməramlılar"ın yerləşdirilməsi barədə təklifləri haqda nə deyə bilərsiniz?***

- Mən bu məsələyə çox pis baxıram. 20 il bundan qabaq dediyim sözün üstündəyəm ki, Azərbaycan ATƏT-in Minsk Qrupunun vasitəçiliyindən imtina etməlidir. Ötən 20 ildə onlar nə veriblər? Sülhməramlı qoşunlar gəlib harada yerləşəcək? Təhlükə də burdadır. "Sülhməramlı"lar Azərbaycanın Qarabağ bölgəsində yerləşəcək, bu da Dağlıq Qarabağın de-fakto "müstəqilliyi" deməkdir. Ona görə də mən onun qəti əleyhinəyəm. Əgər sülhməramlılar gəlib Ermənistan-Azərbaycan sərhədində yerləşsə, mən bunu alqışlayaram. Amma bu qüvvələri Dağlıq Qarabağda, atəşkəs xəttində yerləşdirmək istəyirlər. Bu, çox təhlükəli bir tendensiyadır. Ona görə də Azərbaycan hakimiyyəti özündə cəsarət tapıb hərbi əməliyyatlara başlamalıdır. Mən əminəm ki, sülhməramlı qoşunların təmas xəttinə buraxmaq olmaz, bu, çox təhlükəli oyundur.

***- Bəlkə Ermənistanın hərbi müttəfiqi elə hərbi əməliyyatların başlamasını gözləyir ki, Azərbaycana sarsıdıcı zərbə vursun?***

- Xeyr. Ermənilərin müttəfiqi elə Azərbaycanın da müttəfiqidir. Azərbaycan çalışmalıdır BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi icra olunsun. Həmin 4 qətnamədə işğal olunmuş ərazilər əksini tapıb. Azərbaycanın mövqeyi bu olmalıdır ki, niyə Əfqanıstan, yaxud İraqla bağlı qətnamə çıxarılan kimi orada hərbi əməliyyatlar dərhal həyata keçirilir, amma Azərbaycan öz ərazisini azad edə bilmir? Fikrimcə, Ağdam, Füzuli, Zəngilan, Qubadlı, Cəbrayıl istiqamətində hərbi əməliyyatlar olsa, heç kəs müdaxilə etməyəcək.

***- Yəni siz Rusiya təhlükəsinə ciddi yanaşmırsınız?***

- Rusiya təhlükəsi həmişə olub, var və olacaq. Amma reallıq odur ki, Azərbaycan hakimiyyəti də Rusiya ilə xeyli yaxınlaşıb. Mən istəməzdim belə olsun, amma belədir.

Rusiya Ağdam, Füzuli, Qubadlı əməliyyatına müdaxilə etməyəcək. Əməliyyatlar, Əsgəran, Kəlbəcər, Laçın tərəfdə olsa, müdaxilə edə bilər. Çünki Rusiyanın ən böyük bazalarından biri də Ermənistanda yerləşir. Ancaq bütün təhlükələrə baxmayaraq, biz özümüzdə cəsarət tapıb torpaqlarımızı azad etməliyik. Sülh və danışıq yolu ilə bəlkə də bir neçə rayon azad oluna bilər. Amma onun əvəzinə biz ermənilərə nə verəcəyik və nə vəd edəcəyik, bax, bu, təhlükədir. Onlar 20 ildən çoxdur ki, deyirlər 5 rayonu qaytarırıq, Dağlıq Qarabağ, üstəgəl, Laçın, Kəlbəcər dəhliz olmaqla, "müstəqil respublika" kimi tanıyaq. Bu təhlükələrə görə qətiyyən sülhməramlıların gətirilməsinə razılaşmaq və bununla bağlı danışıqlara getmək olmaz! Daha neçə il danışıq olar?

***- Bir tərəfdən torpaqların geri qaytarılacağı barədə şayiələr yayılır, digər tərəfdən də Ermənistandan Dağlıq Qarabağa ikinci yol çəkilir...***

- Ermənilər Kəlbəcər istiqamətindən də yol çəkiblər, Laçından da. Şahbazgilin kasetində də Kəlbəcər yolu var. Ermənistanla Dağlıq Qarabağın arasında yaxşı infrastruktur qurublar.

***- Bu, ermənilərin torpaqları qaytarmaq niyyətində olmadığını təsdiqləmirmi?***

- Bəs necə? Kəlbəcərdə onların qəbiristanlıqları var, 4-5 "milli qəhrəmanlarını" orda basdırıblar. Ümumiyyətlə, Laçın və Kəlbəcər haqqında heç söhbət yoxdur. Danışıqlarda qarşılıqlı güzəşt söhbəti var ha, o bizdən ötrü qəbuledilməzdir. Qətiyyən ona getmək olmaz, qarşılıqlı güzəştdən söhbət gedə bilməz! Bütün Azərbaycan torpaqlarından söhbət gedə bilər.

***- Rusiyalı milyarder Sterliqov Şuşaya köçüb və ordan Azərbaycanı hədələyir. Bu faktla əlaqədar nə deyə bilərsiniz?***

- Təkcə Sterliqovla bağlı yox, ümumiyyətlə, Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz şəkildə köçən adamların hamısı haqqında cinayət işi qaldırılmalıdır, məhkəmənin qərarı ilə onları İnterpol axtarışına vermək lazımdır. Çünki onlar Azərbaycan sərhədlərini pozub, Azərbaycan dövlətindən xəbərsiz ərazilərimizə soxulublar. Bu mənada Sterliqov barəsində cinayət işinin qaldırılmasını təqdir edirəm. Elə bir mühit yaranmalıdır ki, onların ayağının altında torpaq yansın. Rus milyarder başa düşməlidir ki, onun Qarabağa qoyacağı sərmayə batacaq. Ona görə də deyirəm ki, hərbi əməliyyatlara başlamaq lazımdır.

***- Ancaq hərbi əməliyyatlara, Vətən müharibəsinə başlamaq üçün ölkə daxilindəki mühitin də önəmi böyükdür. Mühit bunu diktə edirmi?***

- Müxalifətçilərin hamısı deyir ki, əgər Azərbaycan ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlara başlasa, o halda müxalifət yoxdur, vahid Azərbaycan xalqı var və yalnız vahid mövqedən çıxış edəcəyik. Mən söhbət etdiyim insanları nəzərdə tuturam: Müsavatı, İsa bəyi, özümüzü, sizi deyirəm. Hamımız bu qənaətdəyik ki, hərbi əməliyyatlar başlasa, siyasi fəaliyyəti dayandırmalı, hamı orduya kömək etməlidir. Edəcəyik də. Ancaq əsas məsələlər iqtidardan asılıdır. İqtidar müxalifəti yığıb qapalı müşavirədə söhbət edə, razılaşma memorandumu imzalaya bilər.

***- İsgəndər bəy, baş redaktorumuz Rauf Arifoğlunun "Əməkdar jurnalist" adı alması siz tərəfdən gözlənilməz olmadı ki? Yeri gəlmişkən, baş redaktora qarşı elə müxalif düşərgədən səslənən tənqidlər haqda nə deyə bilərsiniz?***

- Dostumuz Rauf bəyin zəhmətinin müqabilində ona kiçik də olsa, imtiyaz verilməsini təqdir edirəm və Rauf bəyi təbrik edirəm. Rauf bəy əslində bu mükafatı 20 il bundan qabaq qazanıb. Əgər iqtidar "Şərəf", "Şöhrət" ordeni versəydi, mən yenə də bunu alqışlayardım. Müxalifətin əksər üzvlərinə deyirəm ki, bir şeyi yadda saxlasınlar ki, müxalifəti 20 il Rauf bəyin rəhbərlik etdiyi "Yeni Müsavat" qəzeti saxladı. Bunu heç kəs unutmamalıdır.

Hər bir həbsdə yatıb-çıxan insanların boynunda Rauf bəyin haqqı var. Mənim gedən söhbətlərdən xəbərim var, desəm ki, xəbərim yoxdur, qeyri-səmimilik olar. Mən səmimi qəlblə Rauf bəyi təbrik edirəm. Belə çıxır ki, Rauf bəy həmişə döyülməli, söyülməli, tutulmalı idi? Bilmirəm insanlar niyə belə fikirləşir ki, elə döyüləndə, söyüləndə yaxşıdır? O, kifayət qədər həbsdə də yatıb, əzilib də, ona qarşı təpkilər də olub. Mən ürəkdən təbrik etməklə bərabər, dostumuza uzun ömür, cansağlığı arzulayıram. Elə hesab edirəm ki, ona "Əməkdar jurnalist" adı vermək Rauf bəyin gördüyü böyük işlərin qabağında kiçik bir hədiyyədir. Görünür, iqtidar da başa düşür ki, müxalifətlə dialoq daha yaxşıdır, nəinki onu döyüb həbs etmək, türmələrə atıb çürütmək.

***- Demokratik düşərgədəki aqressiyanın səbəbi nədir? Dünənə qədər bir yerdə olan şəxslər indi niyə hər şeyi unudub hansısa uğurları nifrətlə qarşılayırlar?***

-Vallah, bir-birinə qarşı olan aqressiyanı mən başa düşə bilmirəm. Hədəf qalıb qıraqda, bütün mübarizə bir-birinə yönəlib. Bu, mənə çatmır. Biz nəyi bölə bilmirik, nə ilə barışa bilmirik, bu da mənə çatmır. Məncə, insanlar içindəki hikkəni, "mən" sözünü boğub "biz" sözünə keçsə, hamımız bir yerdə ola bilərik.

***- Bəy, xüsusilə də qarşıdan gələn parlament seçkiləri birliyi tələb edir. Ancaq vəziyyət əksini deyir...***

- Biz çox istərdik belə olsun. Milli Düşüncə Mərkəzi artıq seçkilərə gedəcəyi barədə qərar verib. Bildiyimə görə, Müsavat Partiyasının da qərarı var. Hansı partiyalar gedir, onlara da müvəffəqiyyətlər. Seçkilərə getməyənlərə də uğur olsun. Biz seçkilərə ona görə getmirik ki, seçilək. Seçkilərə ona görə gedirik ki, demokratik ab-havanı dəyişək, insanların seçmək hüququnu bərpa edək. Kim demokratik yolla qələbə qazanarsa, biz onları təbrik etməyə, əlini sıxmağa hazırıq. Amma demokratik seçki tərəfdarıyıq. Həm də sözümüzü camaata çatdırmaq istəyirik. Bilirsiniz ki, bütün qapılar üzümüzə bağlıdır, qəzet oxucuları çox azdır, televiziyanın efirinə çıxışımız məhdudlaşdırılıb. Ona görə biz demokratik mühiti, seçicilərimizin hüququnu bərpa etməkdən, seçicilərimizə inam qazandırmaqdan ötrü parlament seçkilərinə gedəcəyik.

***- Sirr deyilsə, hansı dairəni seçəcəksiniz?***

- Mənim fikrim Kəlbəcər seçki dairəsindəndir. Kəlbəcər də, Ağdam da, Füzuli də, ümumiyyətlə, Azərbaycanın bütün bölgələri mənə əzizdir. Ancaq ərazisi işğal altında olan rayonların birindən qatılmaq istəyirəm, ona görə də hələlik Kəlbəcəri seçmişəm. Qeydiyyata alınıb-alınmayacağım artıq hakimiyyətdən, seçki komissiyasından asılıdır. Qeydiyyata alınmasam da, heç nə dəyişilmir, yenə də antidemokratik seçki, həmin təpkilərdir, sadəcə seçki görüntüsü yaratmaqdır. Demokratik seçki mühitinin yaradılması üçün iqtidar-müxalifət dialoquna da ehtiyac yoxdur. Sadəcə, cəsarət tapıb demək lazımdır ki, seçkilərə buraxırıq, kim artıq səs toplasa, gəlsin parlamentə, fəaliyyət göstərsin. Bayaq hərbi əməliyyatlardan danışdıq. Əgər hakimiyyət hərbi əməliyyatlara başlamaq istəyirsə, ilk növbədə ölkədə demokratik mühit yaratmalıdır. Həmçinin qohumbazlıq, tayfabazlıq, korrupsiya, rüşvətxorluq, inhisarçılıq, dövlət büdcəsini mənimsəmə faktları aradan götürülməlidir. Bunlar aradan qaldırılandan sonra xalqın məhəbbətini qazanıb hərbi əməliyyatlara başlamaq lazımdır...


Fərhim İLQAROĞLU

**"Onların əfv ərizəsi yazmamasını alqışlayıram"**

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015

## Bakı-Təl-Əviv münasibətlərində yeni mərhələ



# Tehran anlaşması Azərbaycanla İsraili yaxınlaşdırır - ilginc gəlişmə

İran üzərindən sanksiyaların götürülməsi Bakının Qərb üçün önəmini azaltsa da, yəhudi dövləti üçün əksinə, artırıb; hakimiyyətin ABŞ və Avropaya qarşı ritorikasında yumşalmanın daha bir mühüm səbəbi; Qarabağ məsələsi üçün təzə şərt yetişə bilər...

**İsrail parlamentində (Knesset) iki gün öncə İsrail-Azərbaycan Parlamentlərarası Qrup yaradılıb. Məlumata görə, qrup Azərbaycanın dostlarından və lobbistlərindən sayılan sabiq xarici işlər naziri Aviqdor Libermanın rəhbərliyi altında təşəkkül tapıb.**

Məsələ ilə bağlı çıxışı zamanı Liberman Azərbaycanın ölkəsi üçün vazkeçilməz strateji önəmini, əvəzsiz coğrafi durumunu və iqtisadi potensialını xüsusi qeyd edib. O, həmçinin iki dövlət arasında ticari əlaqələrin yüksək səviyyədə olduğunu bildirib və İsrailin neftə tələbatının 65%-nin Azərbaycanın hesabına ödəndiyini xatırladıb. Bunun ardınca "şiə Azərbaycanında tarixən yəhudilərin heç vaxt sıxışdırılmadığına" diqqət yönəldib.

**ARAYIŞ üçün:** bu, o Libermandır ki, cəmi 3 ay öncə, xarici işlər naziri olarkən erməni "soyqırımı" iddialarını birmənalı surətdə rədd edərək, Türkiyə və Azərbaycana ciddi reverans eləmiş, tarixi bir mesaj vermişdi (Saxta iddiaların İrəvandakı 100 illik törəninə də İsrail qatılmayıb).

Başqa bir deputat Oded Yusif isə Azərbaycan Milli Məclisinin spikeri Oqtay Əsədovu İsrailə dəvət olunmasını təklif edib.

**Öz növbəsində "Aziz" beynəlxalq assosiasiyasının baş direktoru Lev Spivak çıxışında deyib:** "1991-ci ildə müstəqillik qazanan Azərbaycan öz qonşusu Ermənistanla müharibə vəziyyətindədir. Ermənistan Azərbaycanın 20% torpaqlarını işğal edib və illədir öz nəzarətində saxlayır. İşğal altındakı ərazilər İsrailin ərazisindən də böyükdür". Deputat Bakının uydurma "erməni soyqırımı" məsələsinin Knessetdə hər hansı formada müzakirəsini çox ağrılı qəbul etdiyini də bildirərək, imkan daxilində buna yol verməməyə çağırıb.

Çıxışlar zamanı iki ölkə arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıqla bağlı nəsə deyilməsə də, fakt budur ki, son illər bu sahədə də inkişaf kifayət qədər qabağa gedib. Təkcə onu demək kifayətdir ki, İsrail Azərbaycanın əsas silah satıcılarından biridir. Lakin belə görünür, rəsmi Təl-Əviv bununla kifayətlənmək niyyətində deyil və bütün sahələr üzrə əlaqələri dərinləşdirmək, keyfiyyətcə daha yüksəyə qaldırmaq kursu götürüb. İsrail-Azərbaycan Parlamentlərarası Qrup yaradılması buna bariz sübutdur.

*****

Son gəlişmələr İranla "Altılıq" ölkələri arasında iyulun 14-də imzalanmış Vyana anlaşmasından sonraya təsadüf eləməsi ilə diqqət çəkir. Məlumdur ki, İsrail rəhbərliyi həmin anlaşmanı özünə qarşı təhlükə sayır, çünki hesab edir ki, İran bununla, sadəcə, vaxt udacaq və heç vaxt nüvə silahı yaratmaq ideyasından əl çəkməyəcək. Bunun bariz təsdiqi kimi isə Tehranın Vyana sənədindən sonra da yəhudi dövlətinə aqressiv münasibətinin dəyişmədiyi göstərilir.

Odur ki, rəsmi Təl-Əviv yeni situasiyadan çıxış edərək, "kontir-tədbirlər" barədə düşünməyə başlayıb. Söhbət öncəliklə İsrail ətrafında etibarlı "təhlükəsizlik kəməri" yaratmaqdan gedir. Bu isə ABŞ-la yanaşı, Türkiyə, Azərbaycan, Misir və Səudiyyə Ərəbistanı hesabına mümkündür.

Sadalanan dövlətlərin hamısı Azərbaycana dost-tərəfdaş ölkələrdir. Ehtimal böyükdür ki, İsraillə Türkiyə arasında diplomatik əlaqələrin tam bərpası üçün az öncə başlamış danışıqlar da qardaş ölkədə yeni hökumət qurulandan sonra sürətlənəcək. Bunu artıq Vaşinqtonla yanaşı, koalisiya hökumətinə qoşulacaq ortaqlar (MHP, CHP) də arzulayır və həm də çoxdan.

*****

Doğrudur, İsraillə ifrat yaxınlaşma müəyyən mənada Azərbaycanın ziyanına da ola bilər. İş ondadır ki, sanksiyalar götürüldükdən sonra Bakı İranın böyük neft-qaz layihələrində iştirak eləmək niyyətindədir. İstisna deyil ki, yəhudi dövləti ilə isti münasibətlər bu planlara müəyyən əngəllər yaratsın, hərçənd İran da Azərbaycanın düşməni, təcavüzkar Ermənistanla illərdir geniş işbirliyindədir.

Başqa yandan, İsraillə münasibətlərin daha yüksək səviyyəyə qaldırılması ordumuzun döyüş qabiliyyətinin artırılması və beynəlxalq miqyasda Qarabağ məsələsinə yəhudi lobbisinin dəstəyini təmin eləmək baxımından az əhəmiyyət daşımır. Belə bir dəstək eyni zamanda bu lobbinin ciddi təsir imkanları olduğu ABŞ-la Bakı arasında kolliziyaların yaşanmaması üçün gərəkli ola bilər. Unutmaq lazım deyil ki, beynəlxalq erməni diasporu həm də Qarabağ məsələsinə görə daim Vaşinqtonla Bakının arasını vurmağa çalışır.

Pozitiv haldır ki, rəsmi Bakı da bu digər amilləri, o cümlədən Vyana anlaşmasından sonra Qərb üçün Azərbaycanın strateji önəminin azala biləcəyi ehtimalını ciddiyə alaraq ABŞ və Avropa ilə münasibətlərdə sərt ritorikadan imtina eləməyə başlayıb. Çünki prezident İlham Əliyevin də vurğuladığı kimi, "biz real dünyada yaşayırıq" və bunu nəzərə almağa borcluyuq.

**Real dünyada isə bizə dost əlini uzadan İsrail də var.**

❑ Siyasət şöbəsi


Elxan Nuriyev

## Poroşenko Elçibəyin kadrına vəzifə verdi

### Qubadlının keçmiş icra başçısı Ukrayna elm və təhsil nazirinin müşaviri oldu

**Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti illərində Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini daşıyan Elxan Nuriyev Ukrayna Elm və təhsil nazirinin müşaviri, rektorların attestasiya komissiyasının sədri vəzifəsinə təyin olunub.**

Azərbaycan milli-azadlıq hərəkatının fəallarından olan Elxan Nuriyev ali təhsilini Lvovda alıb. Ötən əsrin 80-cı illərinin sonlarında milli-azadlıq hərəkatına qoşulmaq üçün Azərbaycana qayıdıb. I Qarabağ savaşında Qarabağda, Qubadlı bölgəsində ermənilərə qarşı vuruşan könüllülər batalyonunun tərkibində döyüşüb. 1992-ci ildə prezident Əbülfəz Elçibəyin fərmanı ilə Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Gəncə qiyamından bir müddət sonra yenidən Ukraynaya qayıdıb. Prezident Petro Poroşenkonun imzaladığı sərəncamla iyulun 21-dən Ukrayna elm və təhsil nazirinin müşaviridir.

# "Yəhudilər İsraildən Azərbaycana köçür" iddiası



### Amerika yəhudilərinin köçü ilə bağlı söylənənlər həqiqəti əks etdirirmi?

**Azərbaycanda səfərdə olan Amerika Yəhudi Komitəsinin (AYK) nümayəndə heyətinin Diasporla İş üzrə Dövlət Komitəsində keçirdiyi görüş zamanı maraqlı fakt açıqlanıb. Dövlət Komitəsi sədrinin birinci müavini Valeh Hacıyevlə söhbət zamanı AYK nümayəndə heyətinin rəhbəri, "ACCESS" şirkətinin direktoru Aleksis Hillari Frankel müsəlman ölkəsi olan Azərbaycanda yəhudilərə göstərilən xoş münasibətdən bəhs edib və əlavə edib ki, İsrailə köçən yəhudilər Azərbaycana qayıdır.**

**Sitat:** "Yəhudi icması ilə görüşdə bizə dedilər ki, Azərbaycandan İsrailə köçən bəzi yəhudilər geri qayıdır. Bu o deməkdir ki, onlar burda özlərini çox rahat hiss edir".

Azərbaycan-İsrail Ticarət Evinin rəhbəri, xoşməramlı səfir Aleksander Şapiro Suliman "Bakı-Xəbər" qəzetinə bildirib ki, faktı təsdiq etməsə də, yəhudilərin Azərbaycana qayıtmasını mümkün hesab edib. **Sitat:** "Azərbaycanda fəaliyyət göstərən iş adamları olaraq bu ölkədən tam razıyıq. Bu ölkədə yəhudilərlə azərbaycanlılar arasında daimi dostluq olub. Azərbaycanın heç bir kəndində, qəsəbəsində və ya şəhərində yəhudilərə qarşı ayrı-seçkilik olmayıb. Çox tolerant olan bu ölkədə antisemitizmə misal çəkilə biləcək bir hal belə yoxdur. Yəhudilərin Azərbaycanı tərk etməsi ümumi proseslərin fonunda baş verib. Bu, daha çox, SSRİ-nin dağılması ilə bağlı idi. Həmin vaxt bütün respublikalarda iqtisadi böhran yaşanırdı. Yəhudilər yalnız Azərbaycanı tərk etmədi. Belə yerdəyişmələr başqa sovet respublikalarında da oldu. Azərbaycandan İsrailə kütləvi yəhudi köçü də olmadı. Bu gün biz fərqli bir Azərbaycan görürük: yüksək inkişaf etmiş, modern, biznes üçün əlverişli bir ölkə. Təbiidir ki, belə ölkəyə hamı qayıtmaq istəyər. Bu baxımdan da buranı tərk etmiş yəhudilərin ölkəyə dönüşü tam mümkündür".

Qeyd edək ki, 90-cı illərdə Azərbaycandan köçmüş yəhudilərin geri qayıtması ilə bağlı xəbərlər daha əvvəl də dövriyyəyə buraxılıb. Hesab olunur ki, Azərbaycana gələn neft pulları və yəhudilər üçün biznes mühitinin əlverişli olması onları cəlb edir. Üstəlik, ən mühümü odur ki, Azərbaycanda yüksək səviyyədə tolerant mühit var və yəhudilər Azərbaycanda heç bir ayrı-seçkilik, diskriminasiya ilə üzləşmədən yasaya bilir. Bu şərtlərin hamısı heç də bütün dünya ölkələrində eyni anda yəhudilər üçün mövcud deyil. Bu səbəbdən də geri qayıtmalarla bağlı nəzəri səbəblərin olduğunu deyə bilərik. Hətta 20 il əvvəl köçən yəhudilərin qayıdaraq Qubadakı Qırmızı qəsəbədəki evlərini yenidən təmir etdiyi, tikdiyi haqda da məlumatlar olurdu. Ancaq yəhudilərin Azərbaycana kütləvi qayıtmasından söz etmək mümkün deyil.

İlk növbədə ona görə ki, öz vətəndaşlarının Azərbaycan da daxil olmaqla, başqa ölkəyə köçməsi İsrailin quruluşundan bu yana apardığı siyasətə uyğun deyil. Çünki İsrail dövləti qurulmamışdan hələ çox illər əvvəllərdən yəhudi qurumları dünyanın müxtəlif ölkələrində yaşayan yəhudiləri müxtəlif şirniklәndirici vasitələrlə İsrail *(o zaman Fələstin - K.)* ərazilərinə köçürüb. Bu gün də İsrailin siyasəti yəhudiləri cəlb etmək və demoqrafik vəziyyəti öz xeyrinə dəyişməkdir. Belə bir durumda yəhudilərin hansısa başqa ölkəyə köçməsinə imkan verilməsi inandırıcı deyil. Yalnız iş qurmaq və ya biznes məqsədilə fəaliyyətlər ola bilər ki, bu da köçmək deyil, sadəcə müvəqqəti iş yerdəyişməsi ola bilər.

İkinci tərəfdən, yəhudilərin daha rahat həyat üçün Avropa və ya Amerikaya köçməsi daha realdır, nəinki Azərbaycana. Çünki Avropada yəhudilər üçün daha yüksək komfort vəd edilir. Bu mənada yəhudilərin Azərbaycana köçü xəbərini o qədər də ciddi qəbul eləmək mümkün deyil. Bu daha çox diplomatik jest kimi qəbul oluna bilər. Həm də daha çox Amerika yəhudi təşkilatları ilə Azərbaycan hökuməti arasında münasibətlərin durumunu göz önünə gətirir.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015



# Aqressiyanın yanlış hədəfi

Xalid KAZIMLI

**O gün sosial şəbəkədə belə bir status yazmışdım: "Hazırda bu ölkənin insanlarında olan aqressiyanın eynisi yalnız İraq, Suriya və Əfqanıstan əhalisində var. Yaxşı ki, bizdə əllərdə silah yoxdur, bu hirs-hikkə ilə hamı qırar bir-birini".**

Bu fikrə gələn maraqlı şərhlərin biri isə beləydi: "Bəs sizin fikrinizcə, bunun səbəbi nədir?"

Doğrudan da maraqlı sualdır, bu qədər aqressiyanın, hirs-hikkənin səbəbi nədir, insanlar nədən bu qədər acıqlıdırlar, nədən bir-birini yamanlayır, lənətləyirlər və təkcə virtual aləmdə yox, real həyatda belə bir-birini didməyə hazırdırlar.

Ölkədəki, eləcə də artıq ölkənin dışındakı insanların virtual aləmə inikas etdirdiyi aqressiyanın əsas səbəbi problemlərdir, neqativ hallar, haqsızlıqlar, zülmlərdir.

Bu ölkədə demək olar ki, heç nə öz qəlibində, düzənində deyil, heç bir işimiz öz məcrasında, öz axarıyla getmir, hər işimiz əyridir, hər addımda süni əngəllərlə, manelərlə qarşılaşırıq. Bunlar insanları hiddətləndirir, bir-birinə qarşı qoyur.

Minlərlə ali təhsilli, yetkin, gənc adam var, işsiz-gücsüzdürlər, evlənib ailə qurmalı, özlərinə yurd-yuva düzəltməlidirlər, ancaq onlar bu, fundamental hüquqlarını əldə edə bilmirlər. Onların harın yaşıdları isə bahalı avtomobillərin birindən düşüb o birinə minir, hər gecə şəhərin və ölkənin müxtəlif yerlərindəki villalarından birində gecələyir, günləri bahalı restoranlarda, elitar barlarda keçir. Bütün bu paradoksal həyat tərzi, harınlıqların, dəbdəbənin fonundakı işsizlik və kasıbçılıq təbii olaraq imkansız gənclərdə aqressiya doğurur.

Yenə minlərlə insan var ki, qatıldıqları seçkilərdə (bələdiyyə və parlament) bir qayda olaraq uduzdurulurlar. Hətta mühit o qədər anormal olur ki, kimin gerçəkdən uduzduğu, kimin zorla uduzdurulduğu bəlli olmur və illərdir adcə seçib-seçilmək hüququnu təmin edə bilməyən şəxslər kütləvi şəkildə zorakılıq və saxtakarlıqdan narazı qalırlar. Haqsızlıq onları aqressivləşdirir.

Hər gün icra hakimiyyəti administrasiyalarından ailəsinin yanına əliboş, üzüqara qayıdan minlərlə insan var və məmurların biganəliyi, tamahkarlığı onları hiddətləndirir, adamlar qəzəbli olurlar.

Mülki hüquqlarını məhkəmələrdə həll etmək istəyən, hər dəfə daha arxalı, daha pullu rəqiblərinə uduzan, haqlı olduqları halda haqsız durumda qalan minlərlə insan var ölkədə. Onlar da qəzəblidirlər.

İqtisadi çətinliklərdən, gün-güzərandan, siyasi motivli təqib-təzyiqlərdən bezar olaraq öz vətənlərindən didərgin düşüb Avropa ölkələrinə sığınan, Türkiyəyə, Rusiyaya, Ukraynaya pənah aparan insanların aqressivliyi isə tamam başqa səpkilidir. Onlar artıq maddi problemlərini həll ediblər, amma vətəndə aldıqları psixoloji travmadan qurtula bilmirlər, yaşadıqları ölkələrin cəmiyyətinə adaptasiya olmaqdansa, bir gözləri mütləq Azərbaycandadır və burada baş verən hadisələrə dair mütləq öz qəzəbli rəyləri var.

Burası birmənalıdır: bu ölkədə insanları aqressiv, hirsli-hikkəli, qəzəbli edən mövcud iqtidarın fəaliyyəti, siyasətidir. Əslində narazıların tam əksəriyyəti iqtidar komandasına qarşı aqressiv olmalıdırlar, öz hirs-hikkələrini onun üstünə tökməlidirlər.

Fəqət, nə hikmətdirsə, elə deyil. İnsanlar öz aqressiv fikirlərini bir-birinə ünvanlayır, bir-birini ittiham edir, suçlayır, söyür, yamanlayırlar. Onlar hesab edirlər ki, filan qrup olmasa, filan kateqoriyadan olanlar filan hərəkəti etməsələr, hakimiyyətlə bacarmaq, ona qalib gəlmək daha asan olar.

Təcrübə göstərir ki, bu da yanlış stereotipdir. Əsas problem narazıların parakəndəliyi, dağınıqlığı, başlıca hədəfi düzgün müəyyən edə bilməmələri, odu söndürüb küllə oynamalarıdır.

20 il iqtidar komandasına qulluq edən, cah-cəlal, zövq-səfa içində yaşayan, ancaq günlərin birində iqtidar haqqında güldən bir az ağır söz dediyinə görə çıxdaş edilib kənara atılan adamın 20 il müxalifətə xidmət edən, ümumi iş üçün türmələrdə yatan, hər əzaba, təqib-təzyiqə qatlaşan, ancaq qırx ilin başında simvolik bir mükafat alan şəxsdən üstün tutulduğu ölkədə yaşayırıq. Burada insanlar hiddətlidirlər, acıqlarını tökməyə yer axtarırlar və ən pisi odur ki, onu tapırlar.

Bu ünvan isə xalqı soyub-talayanların, adam öldürüb qan batıranların, yetim malı yeyənlərin, yarımcan əlili döyənlərin, intihara sövq edənlərin, şəhid anasını söyənlərin, öz millətini satanların qapısı deyil. Onlarla işi olan yoxdur. Hədəfdə xalqa daha yaxın olanlar, əl çata bilənlərdir.

# Türkiyə Suriya ilə sərhədləri möhkəmləndirir

## 911 km-lik Türkiyə-Suriya sərhədləri sutkanın 24 saatında havadan və qurudan müşahidə altına alınacaq, sərhəddə hasarlar hörüləcək

**Türkiyə hakimiyyəti Suriya ilə sərhədləri möhkəmləndirmək barədə qərar verib. Bir gün əvvəl ABŞ prezidenti Barak Obama ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub. Yerli mətbuatın yazdığına görə, danışıqlar zamanı liderlər Türkiyə-Suriya sərhədlərinin möhkəmləndirilməsi, terrorçu qrupların keçidinin qarşısını almaqla bağlı fəaliyyətləri gücləndirməkdə razılığa gəliblər.**




Ötən gün isə Türkiyə mətbuatı Türkiyə Silahlı Qüvvələrinin Suriya ilə sərhədləri möhkəmləndirməklə bağlı yeni tədbirlər planı hazırladığı haqda xəbər yayıb. Bildirilir ki, 2 milyard lirə dəyərində yeni plana əsasən, Suriya ilə sərhədlər yeni texnika və vasitələrlə möhkəmləndiriləcək, ərazidən qanunsuz keçidin qarşısı alınacaq. Yeni plana əsasən, sərhəd xətti boyunca beton hasarlar çəkiləcək, gözətçi qüllələri tikiləcək, sərhəd patrulu üçün asfalt yollar salınacaq, gücləndirilmiş məftil hasarlar, işıqlandırılma sistemləri, havadan pilotsuz uçuş aparatları vasitəsilə müşahidə və gücləndirilmiş post-patrul xidmətləri olacaq.

Baş nazirlik yanında İctimai Diplomatiya Koordinatorluğu Suriya sərhədlərinin təhlükəsizliyini təmin edəcək layihələr və əcnəbi döyüşçülərlə bağlı məlumat hazırlayıb. Bundan başqa, DİN tərəfindən hazırlanan və 4 milyard 283 min lirə məbləğində inteqrasiya sərhəd təhlükəsizliyi sistemi layihəsi də Nazirlər Kabinetinə təqdim olunub. Yeni layihəyə əsasən, Türkiyənin 2949 km uzunluğunda olan bütün quru sərhədini sutkanın bütün saatlarında və ilin bütün günlərində nəzarət altında saxlamaq, sərhəd pozuculuğunun qarşısını almaq məqsədi daşıyır. Layihənin əsas bölümü isə Suriya sərhəd təhlükəsizlik sistemidir. Layihə 911 km-lik Suriya sərhədinin mühafizəsinin gücləndirilməsini nəzərdə tutur.

"Hürriyyət" qəzetinin yazdığına görə, hökumətin yeni planına əsasən, sərhəddə havadan davamlı müşahidə sistemi qurulacaq, pilotsuz aparatlar sərhədi izləyəcək. Havada sabit qalan bu qurğular sabit müşahidə imkanı yaradır. Eyni sistem uzun illər Meksika-ABŞ sərhədində tətbiq olunub. Bundan başqa sərhədin həssas ərazilərində divar hörüləcək, hərəkəti qeydə alan həssas məftillər çəkiləcək. Bundan başqa, sərhədə qanunsuz yaxınlaşanlar vurulacaq.

İlk olaraq Qaziantep, Hatay, Şanlıurfa və Mardində həyata keçirilib. Bu bölgələrdə 365 min 70 metrlik xəndək qazılıb. O cümlədən, 3386 metr divar hörülüb, 3366 metrlik isə daşına bilən beton divar quraşdırılıb, 70 km torpaq hündürlük tikilib. 144 km məftil xətt çəkilib.

Bundan başqa, Türkiyə-Suriya sərhədlərinin təhlükəsizliyini 139 sərhəd zastavası qoruyacaq. Sərhəd birliklərinə əlavə olaraq 3 mexanikləşdirilmiş piyada taboru, 1 tank taboru, 1 motorlu piyada taboru və bir 1 komando taboru olmaqla, 18 tabor qoruyacaq. Bu isə təxminən 20 min hərbçi və ya Türkiyənin ümumi sərhəd mühafizəsi qüvvələrinin yarısı deməkdir.

Türkiyə ordusunun məlumatına görə, 2014-cü ildə 5450 qanunsuz sərhəd keçidi hadisəsi qeydə alınıb. 2015-ci ilin ilk 6 ayında bu rəqəm 9 min olub. 2014-cü ildə 2863 qaçaqmalçılıq hadisəsi baş verib. Bu ilin ilk 6 ayında 2900 fakt olub. Ötən il 70927 nəfər sərhədləri qanunsuz olaraq keçməyə çalışıb. Bu ilin 6 ayında 54 min nəfər saxlanılıb.

Türkiyə hökumətinin açıqlamalarına görə, Türkiyə-Suriya və Türkiyə-İraq sərhədlərini keçməyə çalışan adıçəkilən 3 ölkənin vətəndaşı olmayan şəxslər "əcnəbi terrorçu döyüşçülər" olaraq adlandırılıb. 2014-cü ildə Türkiyə sərhədlərini 992 nəfər, bu ilin 6 ayında isə 468 nəfər keçməyə çalışıb. Onların təxminən yarısı, yəni 241 nəfər Çin vətəndaş *(böyük əksəriyyəti uyğur)*, yerdə qalanlar müxtəlif ölkələrdən, o cümlədən 5 nəfər Azərbaycandan olub.

❑ KƏNAN

# Şəhidlər Xiyabanından Bakı meriyasına yürüş

## QAT üzvləri şəhidləri ziyarətdən sonra Hacıbala Abutalıbovla görüşdü; şəhid məzarlarının gizlədilməsi məsələsi müzakirə olundu

**Qarabağ Azadlıq Təşkilatının (QAT) üzvləri Ağdam rayonunun işğal günü ilə bağlı Bakıda Şəhidlər Xiyabanını ziyarət edib. Onlar bütün Qarabağ döyüşçülərinin məzarlarını, "Əbədi Məşəl" abidəsini, Türk Şəhidliyini, general Həzi Aslanovun abidəsini ziyarət edərək dualar oxuyublar, məzarlar önünə güllər qoyublar.**



**QAT sədri Akif Nağı** ziyarətin sonunda bildirib: "Hadisələrin gedişi göstərir ki, torpaqlarımızı yalnız hərbi yolla azad edə bilərik. Ağdamın işğalı cəbhədə böyük uğursuzluqlarımızın başlanğıcını qoydu. Uğurlarımız da Ağdamın işğaldan azad olunması ilə başlayacaq, Şuşanın, Xankəndinin azad olunması ilə yekunlaşacaq."



Ziyarətdən daha sonra bir qrup QAT üzvü Şəhidlər Xiyabanından Bakı Şəhər İcra Hakimiyyətinə qədər yürüş edib. Yürüşdə məqsəd Şəhidlər Xiyabanındakı bir sıra problemləri şəhər hakimiyyətinin diqqətinə çatdırmaq olub. Bakı Şəhər İcra Hakimiyyətinin aparat rəhbəri Rasim Quliyev, sonra isə icra başçısı Hacıbala Abutalıbov QAT üzvlərindən Akif Nağı, Nəsib Cəfərov, Qələndər İsmayılov, Solmaz Alıyeva, Mahirə Muradova, Məmmədəli Quliyev, Nazim Tapdıqoğlunun daxil olduğu nümayəndə heyətini qəbul ediblər. **QAT nümayəndələri Şəhidlər Xiyabanındakı aşağıdakı problemləri diqqətə çatdırıb:**

*1.Qarabağ müharibəsi şəhidlərinin məzarlarının ağaclar arxasında gizlədilməsi, onların görünməməsi.*

*2. Bəzi şəhid məzarlarının pis vəziyyətdə olması, baş daşlarının əyilməsi, yazıların oxunmaz hala düşməsi, sinə daşlarının çatlaması.*

*3. Məzarların ətrafında abadlıq işlərinin aparılmasına ehtiyac olması.*

*4. Şəhidlər Xiyabanına gedən avtobus marşrutlarının olmaması.*

*5. Şəhərdə Qarabağla bağlı lövhələrin, plakatların, videoçarxların olmaması.*

**A.Nağının musavat.com-a dediyinə görə, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov deyilən problemlərin böyük əksəriyyəti ilə bağlı dərhal tapşırıqlarını verib, tapşırıqların icrası üçün avqustun 15-nə qədər vaxt müəyyənləşdirib:** "Yalnız bir məsələ açıq qaldı. Şəhid məzarlarının qarşısını kəsən ağacların götürülməsi ilə bağlı razılıq əldə olunmadı. Hacıbala Abutalıbov bu məsələləri qaldırdıqlarına görə QAT üzvlərinə təşəkkür etdi, ağaclarla bağlı məsələnin çətin məsələ olduğunu, amma bu barədə də düşünəcəyini bildirdi".

❑ Cavid TURAN



# AZAL-ın qiymət oyunu

## Ekspertlər xarici aviaşirkətlərin ölkəyə buraxılmasını vacib sayır, AZAL isə endirimlər səbəbindən reyslərin bağlanacağını vurğulayır

**"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (AZAL) qiymətləri endirməsi barədə açıqlaması narazılıqla müşayiət olunur. Səbəb qiymət endiriminin real olmaması və endirimli şərtlərin gülünc formada əsaslandırılmasıdır. Ekspertlər bildirirlər ki, endirim barədə qərar ciddi olmamaqla bərabər, ictimaiyyəti çaşdırır. Digər ölkələrlə və aviaşirkətlərlə qiymət fərqi isə yenə də müqayisədə AZAL-ın üstünlüyü olmadan yekunlaşır.**

Qeyd edək ki, iyulun 21-də AZAL özünün aşağı büdcəli sərnişindaşıma xəttinin *(lou-kost istiqamətlər)*, həmçinin aviaşirkətin bütün mövcud reysləri üzrə təyyarələrdə aşağı tarifli yerlərin yeni blokunu tətbiq edib. Bu tədbirlərin dövlət başçısı İlham Əliyevin aviabiletlərin qiymətlərinin azaldılması ilə bağlı verdiyi tapşırıqlara uyğun olaraq görüldüyü də vurğulanır. Ekspertlərin fikrincə, AZAL-ın qiymət endirimi barədə bildiriş həqiqəti əks etdirmir və bu, gözdən pərdə asmaq üçün atılmış addımdır. Qiymət azaltması ictimai rəyi yumşaltmağa və sakitləşdirməyə hesablanmış addımdır. Qiymətlərin avro ilə müəyyən edilməsi isə təkcə qanun pozuntusu deyil, həm də manata olan güvənsizlik işarəsidir. Yəni AZAL cəmiyyətə bir mesaj verir ki, Azərbaycan manatına güvənmək olmaz. Azərbaycan manatının məzənnəsi oynaya bilər, milli valyuta dəyərdən düşə bilər. Yəni qiymətlərin avroda elan olunması qanunvericiliyə ziddir. Ölkə qanunvericiliyinə görə, ölkə ərazisində bütün ticarət qiymətləri milli valyuta ilə göstərilməlidir.

**Ekspert Əkrəm Həsənov bu məsələ ilə bağlı musavat.com-a bildirib ki, AZAL xaricdə qiymətləri istədiyi valyutada təyin edə bilər:** "Amma Azərbaycanda edə bilməz. Əvvəla, Konstitusiyanın 19-cu maddəsinə görə, bu, belədir. Həmin maddəyə görə, ölkədə yeganə ödəniş vasitəsi manatdır. Daha sonra "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunun 13-cü maddəsində deyilir: "Satıcı (icraçı) Azərbaycan Respublikasının ərazisində satdığı malların (işlərin, xidmətlərin) qiymətlərini yalnız manatla göstərməlidir". Belə çıxır ki, AZAL bu tələbləri pozur".

Qeyd edək ki, ekspertlər AZAL-ın qiymətləri azaltmasının yolunun rəqabətli mühitdən keçdiyini vurğulayırlar. Bildirilir ki, əks halda, endirim xəbərləri yalandan başqa bir şey deyil. Qeyd edilir ki, AZAL-a rəqib kampaniyaların ölkəyə girişinin təmin olunması qiymət endirimi üçün əsas atılacaq addımdır. AZAL mütləq rəqabətli mühitin olmasına çalışmalıdır, xarici kampaniyaların Azərbaycana girişinə icazə verilməlidir. Əslində AZAL ölkədə fəaliyyət göstərən digər hava yolları şirkətlərinə qiymətləri diqtə edir. Bilet qiymətləri olduqca baha olan şirkət, digər şirkətlərə də qiymətləri ucuzlaşdırmağa imkan vermir.

İddialara görə, ucuz uçuşlar həyata keçirən şirkətlər AZAL-ın qəzəbinə gələrək, ölkəni tərk etməli olur. Ölkəni tərk etməyənlər isə AZAL-la rəsmi olmayan qiymət müqaviləsi bağlamalıdır. Həmçinin bildirilir ki, Azərbaycandan uçuşlar reallaşdıran başqa hava yolları firmaları üçün əlavə "ödənişlər" də tələb olunur. Bu da onların da qiymətləri yüksək saxlamasına səbəb olur. Həmçinin bildirilir ki, AZAL-dakı süni qiymət artımı digər şirkətlərə rəqabət aparmaq üçün də imkan yaratmır. Ekspertlərin fikrincə, biletlərin qiymətinin baha olması AZAL-ın bazardakı monopolist mövqeyindən qaynaqlanır. Bir müddət əvvəl hava yolları vasitəsilə sərnişin daşınması ilə məşğul "Turan Air" şirkəti fəaliyyətini dayandırmalı olub. Hava nəqliyyatı ilə sərnişin daşınmasında özəl sektoru bir şirkət- "Silk Way Business Aviation" MMC təmsil edir. Bu şirkətin bazarda payı cüzidir- sərnişin daşımalarının 0,4 faizi özəl şirkətlərin payına düşür. Daşınmaların 99,6 faizini AZAL həyata keçirir və beynəlxalq hava yollarına görə tarifləri də özü müəyyənləşdirir. Bu tariflər sanki havadan götürülüb və heç bir iqtisadi əsaslandırması yoxdur. Şirkət monopolist mövqeyindən istifadə edərək, tarifləri orta statistik azərbaycanlılar üçün əlçatmaz edib. Gəncədən İstanbula uçuş həyata keçirən "OnurAirz" şirkəti Bakıya buraxılmır. Macarıstanın "Wizz Air" hava yollarının Bakı-Budapeşt marşrutu da bağlanıb. Əvvəlcə aviareysin rentabelli olduğu bildirilsə də, sonradan qiymətlərin ucuzluğu səbəbindən şirkət ölkədən çıxarılıb. Həmçinin "Peqasus Airlines" şirkəti Gəncədən Türkiyəyə ucuz qiymətə səfərlər təşkil edirdi. Artıq buna da imkan verilmir. Türk Hava Yolları ilə isə AZAL qiymət sazişi bağlayıb ki, qiymətlər aşağı düşməsin. Ekspertlərə görə, əsas səbəb AZAL-ın bazarda heç bir rəqibinin olmamasıdır. Bu səbəbdən dünyada müşahidə edilən endirim kampaniyaları da AZAL-da müşahidə edilmir. Həmçinin neftin qiymətinin ucuzlaşması da bu məsələdə təsirsizdir. AZAL bazarda qiymətləri istədiyi səviyyədə saxlaya bilir. Bazarda digər müstəqil oyunçular yoxdur. Nə yerli, nə də xarici şirkətlər bazara buraxılmır. Müəyyən qədər yer tutan "Türk Hava yolları" şirkəti isə Azərbaycanın diktə etdiyi qaydalara görə fəaliyyətini qurur. Yəni tam müstəqil şəkildə fəaliyyət göstərə bilmir.

Bu yay mövsümü AZAL-ın soyğunçuluğu ilə bağlı narazılıq və etirazlar başlanandan sonra isə AZAL görüntü yaratmağa çalışır. Məsələn, AZAL-ın vitse-prezidenti Arif Məmmədov bildirib ki, "Macarıstanın "WizzAir" aviaşirkətinə heç bir qadağa qoyulmayıb". A.Məmmədov sözlərinə görə, "WizzAir" aviaşirkəti heç aldığı xidmətlərin dəyərini ödəməyib: **""WizzAir"in uçuşlarına qadağa qoyulmayıb. Sadəcə "WizzAir" aldığı xidmətlərin qiymətini ödəməyib. "WizzAir" qış mövsümündə uçuşlar həyata keçirmək istəmir. Amma biz onlara uçuşların ilboyu həyata keçirilməsi tələbi qoymuşuq. Şirkət yalnız yay mövsümündə fəaliyyət göstərmək istəyir"**,- deyə vitse-prezident APA-ya bildirib. A.Məmmədov əlavə edib ki, "WizzAir" onların irəli sürdüyü təkliflər barəsində düşünür.

Həmçinin AZAL indidən narazılığa başlayıb və qiymət endiriminin şirkət üçün sərfəli olmadığını vurğulayır. Arif Məmmədov deyib ki, **"Aviabiletlərin qiymətləri elə səviyyədə olmalıdır ki, çəkilən xərc maya dəyərini qarşılasın"**. Onun sözlərinə görə, qiymətlərin aşağı salınması bəzi reyslərin bağlanmasına səbəb ola bilər: **"Ola bilsin ki, bəzi aviareyslərin biletləri 20 faizdən aşağı salınsın. Bu, həmin reyslərin bağlanmasına səbəb olacaq. Əgər bir təyyarə 2 saatdan artıq uçursa və onun biletinin qiyməti 99 avrodan aşağıdırsa, bu, onun xərclərini ödəmir"**.

❑ Röya RƏFİYEVA

# Beynəlxalq Bank imicini bərpa edə biləcəkmi...

## İqtisadçı ekspert bankın problemlərinin həlli yollarını göstərdi




**Beynəlxalq Bankda illərlə üst-üstə yığılan problemli kreditlər nəhayətdə bu ilin əvvəlində bankı kritik duruma saldı. Nəticədə martın 18-də Beynəlxalq Bankın İdarə Heyətinin sədri Cahangir Hacıyev tutduğu postdan uzaqlaşdırıldı. İyulun 22-də Beynəlxalq Bankın Müşahidə Şurasının iclasında İdarə Heyətinə sədr seçilməsi və İdarə Heyətinin üzvlərinin təyin edilməsi məsələsi müzakirə edildi. Elmar Məmmədov İdarə Heyətinə sədr seçildi.**

Hazırda aktual olan sual atılan addımlara rəğmən bankın dirçəlməsi ilə bağlıdır. Beynəlxalq Bankı dirçəltmək mümkün olacaqmı?

**İqtisad ekspert Qadir İbrahimli** deyir ki, Beynəlxalq Bankın dirçəlməsi prosesi problemli kreditlərin idarə olunmasından asılıdır: "Beynəlxalq Bankın 6 milyard problemli krediti var. Bu, çox böyük rəqəmdir. Əgər həmin kreditləri bərpa edə bilsələr, banka əlavə maliyyə resursları cəlb olunsa Beynəlxalq Bank əvvəlki imicini, statusunu bərpa edə bilər".

**İqtisadçı ekspert deyir ki, Beynəlxalq Bankın hazırkı durumu son dərəcə ağırdır:** "Yeni rəhbərliyə qalan miras neqativdir. Bankın dirçəldilməsi üçün ilk növbədə əlavə maliyyə resursları cəlb olunmalıdır. İndiki durumda investorları banka maliyyə yatırmağa cəlb etmək çox böyük səylər, bacarıq tələb edir. Problemli kreditlərin bərpası da çox qəliz məsələdir. Məsələnin məhkəmə qaydasında - mülki mübahisə şəklində həll edilməsi demək olar ki, sıfıra bərabərdir. Hüquq-mühafizə orqanlarının müdaxiləsi olmadan hətta bu mümkünsüzdür. Çünki bankdan borc alan bir çox iş adamı elə hesab edib ki, həmin kreditləri bir müddət ödəmədikdən sonra borcları ümumiyyətlə silinəcək. Ona görə də həmin kreditlər təyinatı üzrə xərclənməyib, ayrı-ayrı adamların adına daşınmaz əmlak alınmasına yönəldilib. Belə bir vəziyyətdə hüquq-mühafizə orqanlarının müdaxiləsi labüddür. Yalnız bu yolla bankın problemli kreditlərinin bərpasından sonra inkişafından, dirçəlməsindən danışmaq olacaq".

**Q.İbrahimli Beynəlxalq Bankın dövlətə aid payının satışa çıxarılmasını da hazırkı durumda uyğun addım sayır:** "Özəlləşdirmənin missiyalarından biri də kritik vəziyyətdə olan müəssisələrə yeni sahiblər tapmaqla investisiyaların cəlb olunmasıdır. Beynəlxalq Bankın durumu kritik olduğundan onun özəlləşməyə çıxarılması da təbii idi. Hazırda bankın özəlləşdirilməsi, yeni investorların cəlbi kursu götürülüb. Bank investisiya müsabiqəsi yolu ilə özəlləşdiriləcək. Səhmlər açıq şəkildə satılmayacaq. Yəni daha çox problemləri həll edən, bankı düşdüyü durumdan çıxara bilən investor müsabiqənin qalibi olacaq. Ancaq özəlləşdirməyə qədər bir çox məsələlər öz həllini tapmalıdır. Müəyyən addımlar atılmalıdır ki, bank kritik durumdan çıxsın".

**Q.İbrahimli Beynəlxalq Bankın İdarə Heyətinə sədr gətirilən Elmar Məmmədovun fəaliyyətinə görəcəyi işlərə görə qiymət verilməsinin düzgün olduğunu söylədi:** "Elmar Məmmədovun bank idarəetməsində təcrübəsi var, özünü menecer kimi təsdiqləyib. Ancaq Beynəlxalq Bankdakı problemlər kifayət qədər çoxdur. Yeni sədr kimi ona tapşırılan işin öhdəsindən gəlib-gəlməməsi isə yaxın zamanlarda bilinəcək".

Beynəlxalq Bankın yeni rəhbəri 1969-cu ildə doğulub, ixtisasca iqtisadçı və hüquqşünasdır. 1995-2004-cü illərdə Beynəlxalq Bankın Əməliyyat İdarəsinin rəisi, Səbayel filialının rəhbəri işləyib. Daha sonra fəaliyyətini "Kapital Bank"da davam etdirən E.Məmmədov 2005-ci ildən bankı sədr müavini, 2009-cu ildən isə sədri işləyib. Ötən il dekabrın 14-də "Azər-Türk Bank" ASC-nin səhmdarlarının ümumi yığıncağında bankın İdarə Heyətinin sədri olub. Elmar Məmmədov "Azərsığorta" Dövlət Şirkətinin rəhbəri Məmməd Məmmədovun oğludur.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 159 (6187) 24 iyul 2015




**Cümə söhbətləri**

# Nemətlərlə rəftarın fəlsəfəsi

**Bismilləhir-Rahmənir-Rahim!**

**Bəşəriyyətin bu gün də ən ciddi şəkildə müzakirə etdiyi mövzu ruzi ilə bağlıdır. İnsanların həyatlarını ən ciddi şəkildə müəyyən edən amillərdən biri - dolanışıqları, yaşayışları, ruzisidir. İnancımızın da bu mövzuda - insanların çalışması, hərəkət etməsi, nə etməliləri ilə bağlı çoxsaylı tövsiyələri var.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Bəzən bu cür olur ki, insanların istədikləri və gözləntiləri qədər onların imkanları olmur. Allahın Peyğəmbəri (s) buyurur: **"Sabahın ruzisinin qəmini çəkmə. Çünki hər sabah öz ruzisini gətirər"**. Bizim həyatımızı ən çox çətinləşdirən məsələ budur ki, bizlər sabahların, biri günlərin, o biri günlərin, növbəti günlərin, ayların, illərin dolanışığını düşünərik. Bu, o mənada başa düşülməməlidir ki, insanlar işləməsinlər, çalışmasınlar. Bu, o vəziyyətə aiddir ki, insan çalışır, səy göstərir, özündən asılı olanları edir. Sabah, biri gün, o biri günlərdə nə olacaqsa, onların qəmini çəkməyə dəyməz. Hər növbəti günün, hər növbəti mərhələnin özünün lütfləri, inayətləri var. Necə ki, dünən və bu gün insanı hər mənada təmin edən Rəbb var, sabahı, biri günü də həmin Rəbb təmin edəcək. Yetər ki, insan özündən asılı olanları etsin, tənbəllik, səhlənkarlıq etməsin, çalışsın, dinin dediyi məsələlərə riayət etsin, ruzini uzaqlaşdıran məsələlərdən uzaq olsun. Ruzi dərdi çəkmək - insanı passivliyə motivləndirir. Bunun əksi isə - çalışmaq, səy etmək, öz güzəranını təmin etməyə çalışmaq və baş xəyallara qapılmaqdan uzaq olmaqdır. Belə davranış modeli insanı tərəqqiyə motivləndirir və qurucu duruma gətirir.

## Çalışmaq və ruzi qəmi çəkməmək

İmam Sadiq (ə) buyurur: **"Öz ruzisinin qəmini çəkənə bir günah yazılar"**. Belə başa düşülür ki, insanların sabahkı günün, sonrakı günlərin ruzisi ilə bağlı yersiz qayğılanması - Uca Allahı qəzəbləndirən işlərdəndir. Bəziləri övladlarının, nəvələrinin də ruzisinin qəmini çəkir. Dinimizin yanaşması budur ki, ruzisinin qəmini çəkənə bir günah yazılar. Dinimiz ruzi qəmini çəkməyə yaxşı yanaşmır. Yenə də ona qayıtmaq lazımdır ki, insanlar bu hədislərdən öz mənfəətləri üçün istifadə edib, tənbəllik etməməlidirlər. Dinimiz çalışmağa, işləməyə, ruzi qazanmağa çoxluca təşviqlər edir. İnsan özündən asılı olanları etməli, qalanlarında isə Allaha təvəkkül etməlidir. Dinimizin tənbəl, çalışmayan adama çox mənfi baxışı var.

Əziz İslam Peyğəmbəri (s) buyurur: **"Həqiqətən Cəbrayıl qəlbimə belə təlqin etdi ki, heç kəs öz ruzisini tam şəkildə əldə etməmiş dünyadan köçməz"**. Yəni əgər insan ondan asılı olanı edərsə və ruzidən məhrum edən əməllərdən də çəkinərsə, onun bu dünyada ruzisi tam şəkildə ona çatar. Günahlar insanı ruzidən məhrum edər. Bəzi əməllər səbəb olar ki, ruzilərdən məhrum olaq. İnsan bir bəndə kimi ondan asılı olan həyatı yaşasa, bu zaman əldə etdikləri - ruzidir. Amma günah yolu ilə, mənfi işlər görməklə əldə olunanlar əsla ruzi deyil. İnsan arxayın olmalıdır ki, çalışacaqsa, üzərinə düşənləri edəcəksə - onun üçün nəzərdə tutulanlar ona çatacaq. Burada qəmlənməyə, ruzi fikri çəkməyə ehtiyac yoxdur.

## Ruzini yaxınlaşdıran amillər

Əziz Məsumlar (ə) bizlərə ruzi qazanmağın yolunu öyrədir. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Xoş niyyətli olanın ruzisi çox olar"**. İnsanın niyyətləri bu qədər önəmlidir. Niyyətlər həm də insanın ruzisini müəyyənləşdirər. İnsanlar var ki, niyyətləri heç də xoş deyil. Hər zaman niyyətləri özünəməxsus mənfi durumdadır. Bəzən elə məhz bu kimi amillər insanın vəziyyətinə, halına təsir edir. Niyyətin özünün müsbət, pozitiv olması ruzinin artmasına gətirib çıxarar.

İmam Sadiq (ə) buyurur: **"Ailəsi ilə mehriban davrananın ruzisi artar"**. İnsanlarla davranış, ailə ilə rəftar İslamın nəzərində çox önəmlidir. Ailə ilə rəftar insanın ruzisinə təsir edər. Ailəsi ilə mehriban davrananın ruzisi artar. Bunun əksi isə insanı məhrumiyyətlərə aparar.

## Ruzi və nemətlər yalnız maddi deyil

Ruzidə olduğu kimi, bu dünyada olan bütün nemətləri də bizə Uca Rəbbimiz əta edir. Onun bütün nemətlərinin əhatəsində olduğumuz bir vaxtda, sabahımızın ruzisi üçün nigarançılıq çəkməyə dəyərmi? Necə ki, ruzi yalnız maddi anlamda deyil, eləcə də, Allahın verdiyi nemətlər də yalnız maddi anlamda deyil. Həzrət Əmirəlmöminin (ə) buyurur: **"Məkarim əxlaqa rəğbət bəsləyin və sizə faydalı olana tərəf tələsin. Bilin ki, Allah sizə nemət vermişdir. İnsanlar sizə möhtacdırlar. Ən səxavətli insan o kəsdir ki, ona ümid bəsləməyən insanlara edər. Hər kim başqasının bir giriftarlığını aradan apararsa, Allah onun 72 dünya və 72 iki axirət giriftarlığını aradan aparar. Hər kim insanlarla yaxşılıqla rəftar edərsə, Allah ona yaxşılıq verər. Çünki Allah yaxşı əməl sahibini sevər"**.

Diqqət etsək görərik ki, mübarək hədisdə heç də maddi olmayan bir nemətə işarə olunur. Anlaşılır ki, insanların bizə olan ehtiyacları - bizə verilən nemətlərdəndir. Hədisin daxilində çoxsaylı önəmli nöqtələr yer almışdır.

## Ali əxlaqlara yiyələnmək nemətdir

Həzrət Əli (ə) bizim xəstə qəlblərimizin, bizim məriz olan vəziyyətlərimizin həkimidir. Bir həkim olaraq Həzrət (ə) buyurur ki, məkarim əxlaqa, yəni ali əxlaqlara rəğbət bəsləyin. Əxlaq olmayan yerdə, mənəviyyat olmayan yerdə heç nə yoxdur. Əxlaq olmayan yerdə dindarlıq da çox aşağı səviyyədə olar. Mümkün deyil ki, bir insan dindarlığa iddialı olsun, mütədəyyin olsun, amma söyüş söysün. Mümkün deyil ki, bir insanın dindarlığa iddiası olsun, amma daxilində ali əxlaqa tərəf yönəlmə olmasın. Əgər yoxdursa, onun dindarlığında ciddi böhran var.

Ali əxlaqlara yönəlmək - inkişafın, irəli getmənin zəruri şərtidir. Həzrət (ə) izah edir ki, bizim üçün faydalı olanı bu yoldur. Bundan başqa bütün yollar zərərlidir. Başqa bütün istiqamətlər zərərlidir. Ali əxlaqlara tərəf hərəkətdən başqa, bütün istiqamətlər bizim zərərimizədir. Şəhvətin quluna çevrilmək, qəzəbin quluna çevrilmək, pis xasiyyətlərin əlində qalmaq - zərərlidir. İnsana fayda verəcək, ona xeyirlər gətirəcək yeganə istiqamət - şüurlu şəkildə, dərklə, anlayışla, iradə göstərərək əxlaqi əməllərə tərəf, mənəviyyata tərəf yönəlməsidir. Əgər bu olacaqsa, insan dünyasından axirəti üçün fayda əldə edə biləcək.

Hər zaman əxlaqi vəziyyətimizi təftiş etməliyik. Tək özümüz-özümüzün üzərində bunu yoxlamalı deyilik. Baxmalıyıq ki, ailədə, toplumda, dostlarla, insanlarla bir mühitdə olanda əxlaqi durumumuz nə yerdədir. Dilimizin, gözümüzün, qulağımızın halının nə yerdə olduğunu təftiş etməliyik. Ali əxlaqlara tərəf hərəkətlənmə şövqünün nə yerdə olduğunu təftiş etməliyik. Əgər yaxşı yerdə deyilsə, deməli vəziyyətimiz heç də yaxşı deyil. Necə ki, xəstə insan acımaz, yaxşı şeylər istəməz, normal insanın istədiklərini istəməz - biz də ruhi-mənəvi baxımdan tam sağlam deyiliksə, deməli bizim də xəstəliyimiz o vəziyyətdədir ki, biz ali əxlaqlara doğru hərəkət etmək istəmirik. Ali əxlaqlara doğru yiyələnmək o qədər önəmlidir ki, əziz İslam Peyğəmbəri (s) özünün gəlişinin, məbəsinin fəlsəfəsini bunda görür. Əziz Rəsulumuz (ə) peyğəmbərliyinin hədəfini və məqsədini ali əxlaqları tamamlamaqda görür.

## Nemətlərdən istifadə qaydası

Həzrət Əmirəlmöminin (ə) bizlərə xatırladır ki, başdan-ayağa Rəbbimizin nemətlərinin içərisindəyik. O nemətlərlə necə davranırıq, necə istifadə edirik? Nemətlərdən Allah bəyəndiyi kimi istifadə etsək, neməti verən onundan istifadəni necə görmək istəyirsə, o cür istifadə etsək, onda fayda əldə edəcəyik. Dildən Allahın istədiyi kimi istifadə etsək, gözdən Allahın istədiyi şəkildə faydalansaq gözün mövcudiyyətindən bəhrə aparmış olarıq. Bu, böyük bir fərasət, bacarıq tələb etmir ki, insan gözü ilə əxlaqsızlıq etsin, haramlara baxsın. Bu, böyük bacarıq və qabiliyyət deyil ki, insanın gözü haramları axtarsın. Əgər insan iradəvi durumda olmasa, diqqət etməsə, hüzuri-qəlbi olmasa, özünü Allah dərgahında hiss etməsə, hər bir günaha tərəf yönələ bilər. Bacarıq budur ki, insan Allaha tərəf yönəlsin, gözünü tənzimləsin.

İnsan çox zaman nailiyyəti, uğurları, ruzini ağır məsələlərdə, ifrat çalışmaqda görür. Lakin bəzən İslami mətnlərə nəzərə salanda görürük ki, çox sadə məsələlərə riayət etməklə də insan bol ruziyə yiyələnə bilər. Əlbəttə ki, bu ruzi yalnız maddi anlam daşımır. İmam Baqirdən (ə) buyurulur: **"Qardaşlarının arxasınca dua et, belə ki, bu, ruzini sənə tərəf yönəldər"**. Bəzən belə sadə məsələlərə riayət edilməsi ciddi nəticələr verir. Əsas şərt isə budur ki, insan bu sadə məsələləri imanla və ixlasla yerinə yetirsin.

Həzrət Rəsulallah (s) öz gəlişini çox lətafətli və incə şəkildə çatdırır. Həzrət (s) buyurur ki, onun gəlişi ali əxlaqları tamamlamaq üçün olub. Bu, o deməkdir ki, əziz Rəsulumuz (s) mübarək gəlişi ilə bizlərə yalnız sərhədlərdə yaşamamağı, yalnız halal və haramların keçidlərində qalmamağı öyrədir. Rəsulumuz (s) bizləri bundan daha yuxarı dəyərlərlə yaşamağa öyrətmək istəyir. Çox təəssüflər olsun ki, insanlar bəzən nəinki daha ali əxlaqlara yiyələnir, hətta halal və haramların keçidlərində belə büdrəməyə başlayır. Artıq bu sərhədlərdə gəzən insan elə bir yerə çatır ki, günah da edə bilir. Naməhrəmlə əllə görüşür, sosial şəbəkələrdə naməhrəmlə məhrəmyanə söhbətlər edir, böhtan onun üçün adiləşir, qeybət adiləşir, yaltaqlıq adiləşir, haqqbasma adiləşir.

Müsəlman toplumunda insanların inkişafı əxlaqın inkişafı və yüksəldilməsi mərhələsində getmir. Bəzən vəziyyət o yerə gəlir ki, dindaxili müzakirələr əxlaqi keyfiyyətlərin yüksəldilməsi müstəvisində deyil, halal-haramlar müstəvisində gedir. Lakin xatırlamalıyıq ki, əziz Rəsulumuz (s) özü, bizlərin ali əxlaqlarını tamamlamaq üçün gəldiyini bildirir. Bunu daim xatırlayan bir toplum, əlbəttə ki, inkişafda olar, əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi üçün çalışar.

## İnsanların bizə olan ehtiyacları da nemətdir

Həzrət Əmirəlmöminin (ə) buyuruşunda bizlərə çatdırır ki, insanların bir-birilərinə ehtiyacları var və bu ehtiyaclar da nemətdir. Hər kəsin bir-birinə ehtiyacı var. Vacib deyil ki, bu ehtiyaclar yalnız maddi olsun. Birinin bir təbəssümə, bir qayğıya ehtiyacı var. İnsanların maddi, mənəvi, psixoloji ehtiyacları var. Üzümüz gülər olsa, təbəssümlü olsaq, insanların qayğılarını bilsək, dərdlərinə şərik olsaq, ən zəngin insana çevrilə bilərik. Biz hamımız Allahın zəif, ehtiyaclı bəndəsiyik. Bu mənada diqqət etməliyik ki, insanların bir-birinə ehtiyacları var.

İmam (ə) mübarək hədisində ən səxavətli insanı da tanıtdırır. Ən səxavətli insan o kəsdir ki, ona ümid bəsləməyən insanlara əta edər. Bir zümrə insanlar var ki, şəxsin öhdəsindədir - ailə kimi. İnsanın onlara diqqət ayırması, onların ehtiyaclarını ödəməsi çox təbii məsələdir. Əslində gerçək səxavətlilik budur ki, insanlar ona ümid bəsləməyən, ehtiyacının ödənməsini ondan gözləməyən insanlara diqqət ayırsın. Həm maddi, həm fiziki, həm də mənəvi mənada ehtiyacları ödəmək mümkündür.

## Birinin ehtiyacını aradan aparmağın mükafatı

Həzrət (ə) bunun mükafatını da bizlərə öyrədir. Hər kim birinin bir giriftarlığını, bir çətinliyini aradan aparsa, Allah-Təala onun 72 dünya və 72 axirət çətinliyini aradan aparar. Hərənin bir problemi, bir çətinliyi var. Bəzən insan öz problemlərinin, çətinliklərinin həlli ilə məşğul olur, onlar da heç həll olmur. Amma onların həlli bəzən çox yaxında olur. Bir nəfər müşkülü, dərdi, çətinliyi olan insana əl tutursan, bir də baxırsan ki, öz çətinliyin heç təsəvvür etmədiyin yerdən həll olub. Bəzən insanların çox böyük şeylərə də ehtiyacı olmur. Bəzən bir təbəssümə, onu birinin dinləməsinə ehtiyacı var. Bəzən insan öz problemlərinin həllinin başqa yerdə axtarır, amma o nəticələri əldə etmək üçün səbəblər əslində çox sadə məsələlərdədir. Bəzən bir təbəssümdə, bir gülüşdə, bir mehribanlıqda, bircə səmimi rəftardadır. Biz insanlarla yaxşılıqla, xoşluqla rəftar edəndə, bizim və həmin insanların Allahı bizimlə yaxşı rəftar edəcək. Çünki Allah-Təala yaxşı əməl sahiblərini sevər.

**Allahım, ruzilərimizi bizdən uzaqlaşdıran əməllərdən, günahlardan bizləri uzaq et!**

**Allahım, nemətlərlə Sənin istədiyin kimi rəftar etməyi bizlərə nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

# “Yediyin zəhər olsun” deyənlərə...

## Adil Qeybulla: “Əhalinin qida gigiyenası və sanitariyası ilə bağlı bilik səviyyəsinin artırılması istiqamətində işlər görülməlidir”



**Yay fəsli gəldisə, Azərbaycan dilində qarğış kimi səslənən “yediyin zəhər olsun” ifadəsi sözün həqiqi mənasında gerçəkləşir. Ölkə əhalisinin qidadan zəhərlənməsi ilə bağlı xəbərlərin, statistikanın ardı-arası kəsilmək bilmir. Son məlumata görə, ötən gün Bakının Nərimanov rayonunda yaşayan Zaur Lətifov adlı şəxs öz mənzilində qida zəhərlənməsindən dünyasını dəyişib. Yay fəsli başlayandan bu nə birinci ölümdür, nə də sonuncu. Səhiyyə Nazirliyinin açıqladığı statistikaya görə, bu ilin 6 ayı ərzində 331 qida zəhərlənməsi halı qeydə alınıb ki, nəticədə 418 nəfər zərər çəkib.**

Lakin bu qədər zəhərlənmə halları qeydə alınsa da, nə bir cinayət işi açılır, nə bir adam məsuliyyətə cəlb edilir, nə də insanlar bu barədə maarifləndirilir. Təbii ki, kafe və restoranlarda təqdim olunan yeməklərin, bazarlarda qeyri-normal şəraitdə satılan meyvə-tərəvəzin keyfiyyəti problemin əsas səbəbidir. Lakin qida məhsullarının xüsusiyyətlərini, düzgün istehlak qaydalarını bilmədiyimiz üçün bəzən öz əlimizlə özümüzü öldürə də bilərik.

Zəhərlənmə hallarının başınıza gəlməməsi üçün təqdim etdiyimiz ekspert məsləhətini diqqətlə oxuyun.

**Qida zəhərlənməsinin insan həyatı üçün kifayət qədər təhlükəli hal olduğuna diqqət çəkən tibb elmləri doktoru Adil Qeybulla bildirdi ki, yay vaxtı zəhərlənmələrə və ağırlaşmalara səbəb olan, hətta ölümə qədər gətirib çıxaran səbəb qida toksik infeksiyalarıdır:** “Qida toksik infeksiyaları qidanın hazırlanma, saxlanma və istehlak qaydalarının pozulması nəticəsində baş verir. Nəzərə almaq lazımdır ki, hər bir qidanın yararlılıq müddəti var. Bəzi qidalar tez xarab olur, bəzi qidalar daha uzun müddət saxlana bilir. Konservat maddələr istifadə olunmayan qidaların yararlılıq müddəti adətən aşağı olur. Bəzi qidaları xüsusi temperaturda, soyuducuda saxlamaqla yararlılıq müddətini artırmaq mümkündür. Ət məhsullarının xüsusilə soyuducunun dondurucu gözündə saxlanması mütləqdir. Çünki donmadığı zaman ətin tərkibində infeksiya inkişaf edir.

Zəhərlənmə hallarının araşdırılması göstərir ki, əksər hallarda qidalar düzgün saxlanılmır, hazırlanmış yeməklər boyat formada yeyilir və ağırlaşmalara səbəb olur".

**Adil Qeybulla problemin əsas səbəbi kimi qida sektoruna nəzarətin zəif olmasını və maarifləndirmə işlərinin aparılmamasını vurğuladı:** “Dünyanın hər yerində qida məsələlərinə nəzarət edən qurum var. Lakin Azərbaycanda bu qurumun fəaliyyəti göz önündə deyil. Dünyanın hər yerində bu məsələ ərzaq təhlükəsizliyi konsepsiyasına daxildir. Bu baxımdan bizdə də bu məsələ həllini tapmalıdır. Hesab edirəm ki, mütəmadi olaraq televiziya ekranlarında mənasız şou-proqramlar yayımlamaq əvəzinə insanlara bu mövzuda maarifləndirici bilgilər versələr daha yaxşı olar. Əhalinin qida gigiyenası və sanitariyası ilə bağlı bilik səviyyəsinin artırılması ilə bağlı işlər görülməlidir. İnsanlara məlumatlar verilməlidir ki, boyat yeməklərin evdə çox saxlanmaması, məişət şəraitində hazırlanan konservləşdirilmiş məhsulların sağlamlığına nəzarət edilməsi, hansı əlamətlərə görə məhsulların zəhərlənməyə səbəb ola biləcəyi ilə bağlı bilgili olsunlar. Məsələn, əgər turşuya qoyulmuş tərəvəzlərdən istifadə edirlərsə, bu zaman turşunun rənginin bulanıq olması, qapağın şişməsi, qoxunun dəyişməsi kimi hallar qidanın toksik infeksiya daşıdığını göstərir. İnsanlar bu cür hallarda diqqətli olmalıdır”.

**Ekspertin sözlərinə görə, qida toksik infeksiyaları çox dəhşətli fəsadlar törədə bilər ki, bunların içində ən təhlükəli olan botulizmdir:** “Botulizm çox ağır qida toksik infeksiyasıdır və çox zaman ölümə gətirib çıxarır. Bu infeksiya çox sürətlə bədənə yayılır və insanı qısa müddətdə öldürə bilər. Ona görə də bu istiqamətdə maarifləndirmə işi artmalıdır. Evdə hazırlanan yeməklərin, konservləşdirilmiş məhsulların saxlanma qaydaları ilə bağlı insanlara məlumat verilməlidir. Meyvə və tərəvəzlərin birbaşa, bişirilmədən istifadəsindən söhbət gedirsə, bu zaman daha çox maye toplayan meyvələr qarpız, yemiş, pomidor və sair məhsullardan zəhərlənmələrə tez-tez rast gəlinir. Bu da həmin meyvələrə verilən gübrələr, zərərverici



həşəratlardan qorumaq üçün səpilən dərmanların torpaqdan köklər vasitəsilə onların tərkibinə keçməsi və meyvələrin tərkibində komulyasiya etməsi ilə baş verir. Əgər qarpız, pomidor və digər sulu tərəvəzlər kəsildikdə onun rəngi dəyişibsə, dad xüsusiyyətləri dəyişibsə və ya içində iri zoğlar varsa həmin məhsulu istifadə etmək düzgün deyil. Yaxşı olar ki, kəsilmiş meyvə-tərəvəzlər maksimum bir neçə saat ərzində yeyilsin, bir neçə gün saxlanmasın. Bundan başqa, bütün meyvə və tərəvəzlər, xüsusən qarpız-yemiş kəsilməzdən öncə yuyulmalıdır. Torpağa yatan meyvələr daha yaxşı yuyulmalıdır. Çünki biz onu yumadan kəsdikdə üzərindəki çirk bıçağa keçərək məhsulun içərisinə düşür və orada qısa müddətdə inkişaf edir. Bildiyiniz kimi, mikroorqanizmlər ən çox yeməklərin suyunda, bulyonda inkişaf edir. Ət yeməklərinin suyu mikroblar üçün ən münbit mühitdir. Ən aşağı temperaturda belə mikroblar orada bölünüb arta bilirlər. Əgər boyat yeməklər, boyat çörək istifadə olunarsa, çörəyin üzərində kif varsa, yeməyin dadında, rəngində, möhtəviyyatında bir dəyişiklik varsa, bu artıq onun tərkibindəki biokimyəvi dəyişiklikdən xəbər verir. Bu cür yeməkdən istifadə qətiyyən olmaz. Kiflənmiş, bir hissəsi çürümüş meyvələr zəhərlənmədən əlavə, tərkibindəki konserogen maddələrlə qara ciyər xərçənginə səbəb ola bilər. Qidalar soyuducuda saxlansa belə, bu müddət maksimum qısa olmalıdır, bir-iki gündən artıq keçməməlidir. Yay vaxtı soyuducuda uzun müddət qida saxlamaq da zəhərlənməyə yol açır”.

❑ **Nərgiz LİFTİYEVA**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 159 (6187) 24 iyul 2015



## WhatsApp-dan yeni "bomba"

Dünyanın ən populyar səsli mesajlaşma sistemi olan Whatsapp daha bir yenilik etməyə hazırlaşır. Bu dəfə yenilik səsli danışıqla bağlı olacaq. Belə ki, artıq danışıqlar internet paketinizdən hesablanmayacaq. WhatsApp yeni tədbiqetməsi ilə səsli danışıq sistemini daha da təkmilləşdirib. Hələlik yenilik ancaq "Android" cihazlarda çalışacaq və "Google Play"dən təqdim ediləcək. Yenilik sayəsində interneti az olanlar limiti keçmədən rahat-rahat danışa biləcəklər. Bunun hansı yollarla mümkün olacağı barədə isə ətraflı məlumat verilməyib.

Mesajlaşma sistemi bir neçə il öncə facebook tərəfindən alınıb. WhatsApp dünyada ən çox istifadə edilən proqramlardandır.

Bundan başqa, danışıqlarınızı "Google Drive"da yükləyə biləcəksiniz. Hələlik bu xidmət üzərində iş yekunlaşmayıb. Smartfonlar üçün ani mesajlaşma mübadilə sistemi olan WhatsApp, demək olar ki, artıq ən çox istifadə olunan ünsiyyət vasitələrindəndir. Facebook tərəfindən satın alınan xidmət qısa zaman ərzində bir çox yeniliklərə imza atıb. Bunların arasında mesajların oxunduğunu göstərən qoşa mavi xətt, səsli danışıq, yeni dizayn və sairə var. Bundan əlavə, yaxın zamanlarda WhatsApp-a facebook-dakı kimi bəyənmə (like) düyməsi də gələcək.

# Ən az siqaret çəkilən ölkə

Dünya Səhiyyə Təşkilatı Türkmənistan vətəndaşlarının 8 %-nin siqaret çəkdiyini açıqlayıb. Araşdırmalara görə, dünyada ən az siqaret çəkilən ölkə Türkmənistandır. Sevindirici xəbəri Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədova verən Dünya Səhiyyə Təşkilatının başçısı Marqaret Çan "sizi buna görə təbrik edirəm" deyib. 1995-ci ildən bəri Türkmənistanda siqaret çəkənlərin 27%-ni kişilər, 1%-ni qadınlar təşkil edirmiş. Son illərdə ölkədə ictimai yerlərdə, dövlət binalarında, orduda siqaret çəkmək və siqaretlərin reklam afişaları qadağan edilmişdi. 2012-ci ildə aparılan araşdırma nəticələrinə görə, 15 yaşından yuxarı şəxslərdə kişilərin 31,1%-i, qadınların 6,2%-i siqaret çəkir.



# Qarpız və yemişin faydaları

Qarpız və yemiş yay fəslinin ən dadlı və faydalı bostan məhsuludur. Diyetoloqlar isə hər ikisinin faydalı olduğunu, lakin kökəlməmək üçün birinə daha çox üstünlük verməli olduğumuzu deyirlər. Bəs görəsən, kökəltməyən hansıdır, qarpız ya yemiş?

Hər iki bitkinin enerji dəyəri aşağıdır, su nisbəti isə yüksəkdir. Onlar yüksək miqdarda şəkər ehtiva edirlər. Buna baxmayaraq, karbohidrat səviyyələri olduqca aşağıdır, gün ərzində çox şirniyyat yeməyinizin qarşısını alacaqlar. Hər iki bostan məhsulu B1 vitamini ehtiva edir və sinir sisteminə təsir edərək insanı sakitləşdirir, stressdən azad olmağa kömək edirlər. Tərkiblərində olan B2 vitamini isə gözün və dərinin sağlamlığı üçün əhəmiyyət kəsb edir. Bu meyvələr C vitamini ilə də zəngindirlər. C vitamini də göz sağlamlığı və dərinin elastikliyini qoruyub saxlamaq üçün vacibdir. Üstəlik, immunitet sistemini gücləndirir. Yemişlə qarpızın tərkibində olan B6 vitamini isə maddələr mübadiləsini sürətləndirir.

Qarpıza qırmızı rəng verən "karotenoid" və digər antikansoregen maddələr bədəni toksinlərdən təmizləyir, xərçəngdən qoruyur. 100 qram qarpız 22 kalori ehtiva etdiyi halda, eyni miqdarda olan yemiş 27 kaloridir. Qarpız insanı daha tez doyuzdurur və az yeməyə səbəb olur.





## Ata olmağın "zərərləri"...

ABŞ-da aparılan bir araşdırmaya görə, ilk uşaq dünyaya gələndən sonra kişilər orta hesabla 2 kilo kökəlirlər. Araşdırma "Amerika kişi sağlamlığı" jurnalında dərc olunub. Publika.az xəbər verir ki, bu qənaətə ABŞ-dakı "Northvestern" Universitetindən doktor Kreyq Qarfield başçılıq etdiyi qrupla birgə apardığı araşdırma nəticəsində gəlib. Araşdırmada təxminən 10 min kişi iştirak edib. Araşdırma rəhbəri Qarfield bunu kişilərin ata olduqdan sonra həyat tərzinin dəyişməsi ilə izah edib. Qarfield uşaqdan sonra kişilərin çiyinindəki məsuliyyətin artdığını, ailənin bütün problemlərini özü həll etdiyi üçün idmana getmədiyi ilə əlaqələndirib. Bundan başqa, uşaq olan evə dondurma, qurabiyə kimi qidaların daha çox girdiyini, adətən kişilərin uşaqların yeməyindən də yediyini vurğulayıb. Alimlər ataların kökəlməsinin və bədən çəkisinin artmasının ürək, şəkər və xərçəng kimi xəstəliklərə səbəb olduğunu da bildiriblər.




**QOÇ** - Ciddi işlərin həllinə həvəs göstərməyin. Əks təqdirdə, sizə mane olanlar tapılacaq. Yaxşı olar ki, əsas diqqətinizi istirahətə yönəldəsiniz. Ürəyiniz istəsə, qonaq da getmək olar.

**BUĞA** - Ümumi çalarlarına görə uğurlu ərəfə hesab etmək olar. Qarşılıqlı münasibətlərdən tutmuş əməli fəaliyyətə qədər hər şey zövqünüzə uyğun olacaq. Ağzıdualı olun.

**ƏKİZLƏR** - Əsasən nahara qədər fəaliyyətlə bağlı uğurlu anlarınız çox olacaq. Bunun üçün aktivliyinizi artırmalısınız. Sonrakı saatlarda isə köhnə problemlər gündəmə gələcək.

**XƏRÇƏNG** - Risk etməyə məhkumsunuz. Çünki mövcud ideyalarınızı gerçəkləşdirməkdən ötrü başqa yolunuz qalmayıb. İndi güzəştə getmək yalnız zərərinizə işləyə bilər. Axşam maraqlı insanlarla görüşəcəksiniz.

**ŞİR** - İxtiyarınızda olan bu gözəl gündə üzərinizə düşən başlıca vəzifə ədalətli qərarlar çıxarmaqdır. Baş verən situasiyaları düzgün qiymətləndirin. Yeni qərarlar səmərə verə bilər.

**QIZ** - Gərgin situasiyalarla rastlaşma ehtimalınız var. Ələlxüsus da kənar təsirlər əsəblərinizi qabarda bilər. Təmkinli olun. Yeni sövdələşmələrə başlamaq istəyirsinizsə, günortaya saxlayın.

**TƏRƏZİ** - Yeniliklər yolunuzu gözləyir. Rastlaşdığınız insanların əksəriyyəti qayğılarınızı sizə unutduracaq. Qonaq çağrılsanız, həvəslə razılaşın. Ümumiyyətlə, bu gün yola çıxmaq uğurludur.

**ƏQRƏB** - Bəzi qanqaraçılıqlar gözlənilsə də, səbr nümayiş etdirməlisiniz. Əmin olmadığınız proseslər barədə qəti fikir söyləməyin. Bir sözlə, riskə getmək, mübahisə etmək, səfərə çıxmaq olmaz.

**OXATAN** - Fəaliyyət zəminində uğurlarınız mümkündür. Bunun üçün ilk növbədə işgüzar sövdələşmələrinizin sayını artırmalısınız. Amma səhhətinizi də qorumalı, mübahisədən qaçmalısınız.

**OĞLAQ** - Daxili sıxıntılarınızın artacağı mümkündür. Bu isə ətrafınızda olan insanların etibarsızlığından doğacaq. Bir tərəfdən səhhətinizdə, digər tərəfdənsə münasibətlərinizdə problemlər mümkündür.

**SUTÖKƏN** - Kənardan kömək olmasa hər hansı nailiyyətə yetişə bilməyəcəksiniz. Ümumiyyətlə, təkbaşına heç bir iş görməməlisiniz. Bu gün yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür.

**BALIQLAR** - Daxili sıxıntılarınızın xeyli azalacağı gözlənilir. İstənilən prosesdə ədalət prinsiplərindən bəhrələnin. İmkan verməyin ki, sizi aldatsınlar. Sevgidə qətiyyət göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 30 ildir başqasının orqanları ilə yaşayır




İngiltərədə yaşayan Andre Vitbinin adı Ginnesin Rekordlar kitabına düşüb. Başqalarının ürək və ağciyəri ilə yaşayan 51 yaşlı Vitbi ürəyində dəliklə dünyaya gəlib. Həkimlər Vitbinin cəmi bir neçə il yaşayacağını deyiblər. Lakin o, deyilənlərin əksinə yaşamağa davam edib. 20 yaşından sonra səhhəti daha da pisləşən Vitbinin ağciyərləri də sıradan çıxıb. 1985-ci ildə ona başqa birinin ağciyəri və ürəyi nəql edilib. 30 il başqalarının orqanlarını ilə yaşayan Vitbi hələ çox uzun illər yaşayacağına ümid edir.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300